

*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 030 (5750) **14 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Bölgələrin inkişafı əhalinin rifah halını yüksəldir

## *Azərbaycan Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfər edib*



Səh 2

5

Yeni Azərbaycan Partiyasının qərargahında qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüş keçirilib



7

Heç bir halda təhqir və söyüş siyasi mübarizə metoduna çevrilməməlidir



8

"Prezidentin fikirləri Ermənistana xəbərdarlıq olmalıdır"



# Bölgələrin inkişafı əhalinin rifah halını yüksəldir

## Azərbaycan Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfər edib

***Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Beyləqan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.***



Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev rayonda görülən işlər haqqında dövlətimizin başçısına məlumat verib. Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verib.

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfəri çərçivəsində Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun göstəriciləri barədə məlumat verib.

Məlumat verildi ki, bu yol 26 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirir. Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun tikintisinə dövlət büdcəsinin investisiya xərclərindən 14,6 milyon manat ayrılıb. Uzunluğu 20,5 kilometr olan yolun hərəkət hissəsinin eni 6-14 metrdir. İki və dörd hərəkət zolaqlı yol yüksək keyfiyyətlə tikilib. Yol boyunca üç avtobus dayanacağı, suötürücü borular, 78 yol nişanı və göstərici lövhələr quraşdırılıb. Uzunluğu 73 min metr olan yol-cizgi xətləri çəkilib, dörd körpü əsaslı təmir edilib.

Prezident İlham Əliyevə Beyləqan rayonunun Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolunun yenidən qurulması layihəsi barədə də məlumat verildi. Bildirildi ki, dördüncü texniki dərəcəli yolun ümumi uzunluğu 39,4 kilometrdir. İki hərəkət zolaqlı yolun hərəkət hissəsinin eni altı metrdir. İyirmi iki min nəfər əhalinin yaşadığı səkkiz yaşayış məntəqəsini birləşdirən yolun təmiri yük və sərnişin daşınmasının daha da yaxşılaşdırılmasına imkan verəcək. Dövlətimizin başçısı Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsib. Sonda xatirə şəkli çəkdirilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Beyləqan Olimpiya İdman Kompleksinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış olub. Gənclər və idman naziri Azad Rəhimov Beyləqan Olimpiya İdman Kompleksində yaradılan şərait barədə Azərbaycan Prezidentinə ətraflı məlumat verib.

Bildirildi ki, kompleksin tikintisinə 2018-ci ildə başlanılıb. Prezident İlham Əliyevin sərəncamları ilə Olimpiya İdman Kompleksinin tikintisinin davam etdirilməsinə ümumilikdə 17,5 milyon manat vəsait ayrılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin fevralında başa çatdırılıb. Kompleks müasirliyi ilə diqqəti cəlb edir. Bu, ölkəmizdə istifadəyə verilən sayca 45-ci Olimpiya İdman Kompleksidir. Ümumi ərazisi 2,6 hektar olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb. Beyləqan Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev idmançılarla və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Görüşdə çıxış edən dövlətimizin başçısı İlham Əliyev bildirib ki, bu mərkəzin yaradılması bizim idman siyasətimizin təzahürüdür, onu göstərir ki, doğrudan da Azərbaycan idman dövlətidir:

"Biz çalışırıq bütün bölgələrdə, hər bir rayonda müasir idman kompleksləri tikilsin ki, gənclər, uşaqlar, yeniyetmələr idmanla məşğul olsunlar. Bu şəraiti biz yaradırıq. Deyə bilərəm ki, bu Olimpiya İdman Kompleksi ən yüksək dünya standartlarına cavab verir. Burada bizim gənc idmançılarımız məşq edəcəklər, yarışacaqlar və beləliklə, ölkəmizin idman şöhrətini yüksəklərə qaldıracaqlar.

Bütün bölgələrdə bu istiqamətdə işlər gedir. Bu il əlavə iki Olimpiya İdman mərkəzinin açılışı gözlənilir. Yəni, Azərbaycan dövləti bu istiqamətdə öz siyasətini aparır. Bunun nəticəsində bizim idmançılarımız beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında yüksək nəticələr qazanırlar. Hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, idmançılarımız bu gün dünya miqyasında ən yüksək zirvədədirlər. Bunu Olimpiya Oyunları da göstərir. Keçən Yay Olimpiya Oyunlarında medalların sayına görə bizim komandamız dünya miqyasında 14-cü yerdə idi. Bu, tarixi bir qələbədir. Çünki biz bir çox inkişaf etmiş ölkələri qabaqlamışıq. Dünya və Avropa çempionatlarında da bizim idmançılarımız ən yüksək nəticələr göstərərək bayrağımızı zirvələrə qaldırırlar.

Əlbəttə ki, idmanla məşğul olmaq üçün şərait olmalıdır. Bu şərait yaradılır. Bakı şəhərində ən mötəbər idman yarışları keçirilir - Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, dünya çempionatları. Bölgələrdə bu şərait yaradılır ki, idmançılar, gənclər idmanla məşğul olsunlar. Əminəm ki, rayon sakinləri də bu imkanlardan istifadə edəcəklər. Çünki hər bir vətəndaş idmanla məşğul olsa, daha sağlam olar. Çünki idman sağlamlığın rəhnidir.

Ardı Səh. 3

# Bölgələrin inkişafı əhalinin rifah halını yüksəldir

## *Azərbaycan Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfər edib*



### Rəsmi xronika

Prezident İlham Əliyev Beyləqan rayonunun Dünyamalılar kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Beyləqan şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi və əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Əvvəli-Səh-2

İdmançılar həm fiziki, həm də mənəvi cəhətdən sağlam olurlar. Bizim idmançılarımız yarışlarda da, məişətdə də yüksək nümunə göstərirlər. Biz idmançılarımızla haqlı olaraq fəxr edirik. Bizim görkəmli idmançılarımız, Olimpiya çempionlarımız, dünya çempionlarımız,- onlardan biri bu gün burada iştirak edir,- bizim fəxrimizdir. Onlar gənclər üçün gözəl nümunə göstərirlər. Gənclər vətənpərvər, peşəkar, fiziki cəhətdən güclü olmalıdırlar. Beyləqan rayonunun inkişafına daim diqqət göstərilir, bu istiqamətdə işlər görülür, infrastruktur layihələri, sosial layihələr icra edilir. Misal üçün, indi Beyləqan rayonunda qazlaşdırmanın səviyyəsi 97 faizdir. Yaxın zamanlarda bu, 100 faizə çatacaq. Nəzərə alsaq ki, bir neçə il bundan əvvəl qaz təchizatı çox aşağı səviyyədə idi, bu, çox böyük göstəricidir. Bu gün fəaliyyətə başlayacaq yeni yarımstansiya Beyləqan rayonunun elektrik enerjisi ilə təminatını böyük dərəcədə yaxşılaşdıracaq və bu sahədə də heç bir problem olmayacaq."

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsib.

Yenidənqurmadan sonra muzeydə yaradılan şəraitlə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, bu mədəniyyət ocağı 1981-ci ildə yaradılıb. Muzeyin əvvəlki binası uzun illər istismar olunduğundan fiziki aşınmaya məruz qalmışdı. Bundan başqa, muzeyin ekspozisiyası SSRİ dövrünün tərtibatı əsasında qurulmuşdu. Ötən il yenidən inşa edilən ikimərtəbəli binanın ümumi sahəsi 1050 kvadratmetrdir. Muzeydə ekspozisiya zalı, iki xidməti otaq, bir fond otağı, 60 yerlik konfrans zalı, 12 yerlik "dəyirmi masa" zalı, bir texniki otaq var. Muzeydə həm ölkəmizin, həm də Beyləqanın tarixini əks etdirən eksponatlar toplanıb. Bu eksponatlar turistlərdə böyük maraq doğuracaq, onların ölkəmizin tarixi ilə daha yaxından tanış olmalarına hərtərəfli imkan yaradacaq.

Bildirildi ki, burada 6087 adda eksponat mövcuddur. Muzeyin fondunda və kolleksiyasında ən qədim eksponat son tunc, ilk dəmir dövrü və eramızdan əvvəl X-VII əsrlərə aiddir. Ekspozisiya zalında Beyləqanın qədim dövrdən bu günə qədər olan siyasi və ictimai tarixi, maddi-mədəniyyət nümunələri, mədəni-iqtisadi həyatı, ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Beyləqan rayonuna səfərlərini əks etdirən fotolar və məlumatlar nümayiş etdirilir. Sonra Prezident İlham Əliyev muzeyin yerləşdiyi parkda istirahət edən rayon sakinləri ilə görüşüb, onlarla söhbət edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Beyləqan rayonunda yenidən qurulan 110/35/10 kV-luq "Beyləqan-1" yarımstansiyasının açılışında iştirak edib. Prezident İlham Əliyev yarımstansiyanı işə salıb.

"Azərişıq" ASC-nin sədri səlahiyyətlərini icra edən Vüqar Əhmədov dövlətimizin başçısına məlumat verdi ki, Beyləqan Elektrik Şəbəkəsində 22 min 480 abonent mövcuddur. Onlardan 20 min 728-i əhali, 1752-si qeyri-əhali kateqoriyasına aiddir. Rayonun elektrik enerjisi ilə təminatının və etibarlılığın artırılması məqsədilə istismarda olan avadanlığın texniki parametrlərini itirmiş və dispetçer əməliyyat çevrilmələrinin aparılması mümkün olmayan mövcud 110/35/10 kV-luq "Beyləqan-1" yarımstansiyası tam yenidən qurulub, hər biri 25 MVA gücünə malik iki transformator quraşdırılaraq, 15 MVA yeni güc yaradılıb. Yarımstansiyada 35 kV-luq hava xəttinin tikintisi və şəbəkə ilə əlaqələndirilməsi, Beyləqan və Ağcabədi rayonlarının 35 kV-luq dairəvi elektrik təchizat sxemlərinin yaradılması bu rayonlarda elektrik enerjisinin dayanıqlılığına və etibarlılığına, 110 kV-luq üç qovşaq yarımstansiyasının əlaqələndirilməsinə, eyni zamanda, yüklərin bir mənbədən digər mənbə üzərinə keçirilməsinə xidmət edəcək.

*Ardı Səh. 4*



# Bölgələrin inkişafı əhalinin rifah halını yüksəldir

## *Azərbaycan Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfər edib*











Əvvəli-Səh-3

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev fevralın 13-də Müdafiə Nazirliyinin Beyləqan rayonu ərazisində yeni inşa edilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport veriblər.

Azərbaycanın iqtisadi inkişafı Silahlı Qüvvələrin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Təbii ki, güclü ordunun yaradılması həm də güclü hərbi-sənaye kompleksinin mövcudluğu ilə şərtlənir. Bu məsələyə vaxtında lazımi diqqət göstərən Prezident İlham Əliyevin rəhbərliyi ilə 2005-ci ildə ölkədə müdafiə sənayesinin əsasının qoyulması və bu sahədə istehsalyönümlü müəssisələrin fəaliyyətə başlaması Azərbaycan Ordusunun maddi-texniki bazasını daha da gücləndirib. 2019-cu ildə Prezident İlham Əliyevin Müdafiə Sənayesi Nazirliyinin əsasında "Azərsilah" ASC-nin yaradılması ilə bağlı imzaladığı Fərman da Silahlı Qüvvələrin müasir tələblərə cavab verən müdafiə təyinatlı məhsullarla təmin olunmasında əhəmiyyətli rol oynayacaq. Ölkədə hərbi xərclərin artırılması hərbçilərin sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub. Son illərdə hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi sahəsində sistemli tədbirlər görülüb. Hərbi qulluqçuların rütbə və vəzifə maaşları artırılıb, onlar üçün paytaxtda və bölgələrdə xidməti yaşayış binaları tikilib. İndi Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Bunu beynəlxalq hərbi tədqiqat mərkəzlərinin hesabatları da təsdiqləyir. Bu nəticəyə isə hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində nail olunub. İndiyə qədər ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub. Ordumuzun gücünü son illərdə keçirilən hərbi paradlarda nümayiş etdirilən canlı qüvvə və hərbi texnikadan da görmək olur.

Dövlətimizin başçısına məlumat verildi ki, 13 hektar ərazidə yerləşən hərbi hissənin inşasına 2017-ci ildən başlanılıb. Artıq tikintinin birinci mərhələsi başa çatdırılıb. Hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Hərbi şəhərcikdə inzibati, xidməti, yaşayış, texniki binalar inşa olunub, qurğular yerləşdirilib. Prezident, Ali Baş Komandan İlham Əliyev burada silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış olub.

Prezident İlham Əliyev daha sonra yeməkxanada yaradılan şəraitlə maraqlanıb, hərbi hissənin şəxsi heyəti ilə birlikdə nahar edib.

Bütün bunlar göstərir ki, orduda aparılan islahatlar öz bəhrəsini verir. Döyüş hazırlığının yüksək tələblərə cavab verən səviyyəyə çatdırılmasını prioritet vəzifə kimi müəyyənləşdirən Prezident İlham Əliyev təmas xəttində yerləşən bölgələrimizə mütəmadi səfərlər edir. Ali Baş Komandanın əsgərlərimizlə keçirdiyi görüşlər onları Vətəni qorumağa, işğal altındakı torpaqlarımız uğrunda hər an savaşa qalxmağa ruhlandırır. Bununla da güclü ordu potensialımız bizi əsas məqsədimizə, işğal edilən torpaqlarımızın azad olunmasına daha da yaxınlaşdırır. Bunun nəticəsidir ki, qəhrəman hərbçilərimizin uğurlu əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsi 2016-cı ildə azad olunub. Füzuli rayonu istiqamətində yerləşən və geniş ərazini nəzarətdə saxlamağa imkan verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi ələ keçirilib. Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Ermənistan silahlı birləşmələrinin işğalı altında olan Günnüt kəndinin 26 ildən sonra ordumuzun nəzarəti altına keçməsi nəticəsində Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Mehridağ işğaldan azad edilib, ümumilikdə 11 min hektara yaxın ərazi nəzarət altına alınıb. Bu da göstərir ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücünün əsasında xalqına, dövlətinə sədaqət və Vətən sevgisi durur.

# Yeni Azərbaycan Partiyasının qərargahında qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüş keçirilib

***Dünən Yeni Azərbaycan Partiyasının qərargahında qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüş keçirilib.***

Tədbirdə Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov, YAP icra katibinin müavinlərindən, MM-in İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, MM-in sədr müavini, Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri Bahar Muradova, QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev və QHT təmsilçiləri iştirak ediblər.







Tədbirdə sosial mediada təhqirlərin və digər bu kimi xoşagəlməz halların qarşısının alınması yollarının tapılması istiqamətində müzakirələr aparılıb.

Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri Bahar Muradova bildirib ki, bu gün dünyanın yaratdığı texnoloji yenilik ciddi problemə çevrilib: "İnternetdə təhqirlər, mənəvi terror cəmiyyət üçün ciddi problem yaradır. Azərbaycanda bu problemlərin qarşısını almaq üçün qanunvericiəsaslar da var və bu, bütün beynəlxalq təşkilatların standartlarına uyğundur. Lakin qanunlar internetdə baş verən bu eybəcərliklərin qarşısını almaqda acizdir. Biz qanunlara hər hansı məhdudlaşdırıcı maddələr əlavə etmək niyyətində deyilik. Bu problemin qarşısını almaq üçün mübarizə yolları tapmalıyıq".

Tədbirdə çıxış edən QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev bildirib ki, sosial şəbəkələr vasitəsilə milli mənəvi dəyərlərimiz mənəvi terrora məruz qalır: "Sosial şəbəkələrdə dövlət, hakimiyyət orqanlarını gözdən salmağa çalışırlar. Bunu düşünülmüş siyasi məqsədlərlə edirlər. Sosial şəbəkələrdə söyüş adi hala çevrilib. Müzakirələr aparmalıyıq və elə bir yol tapmalıyıq ki, insanlar söyüşə məruz qalmasın". Digər çıxışçılar da sosial şəbəkənin yaratdığı mənfi təzahürlərdən danışıblar və bu istiqamətdə maarifləndirmə işinin gücləndirilməsinin vacibliyini vurğulayıblar.

# "Prezidentin müsahibəsi bir çox mühüm cəhətləri ilə yadda qaldı"

"Azərbaycan Prezidenti cənab İlham Əliyevin müsahibəsi bir çox mühüm cəhətləri ilə yadda qaldı. Hər şeydən öncə müasir dövrdə beynəlxalq münasibətlərin real vəziyyəti və bu vəziyyətdə beynəlxalq münasibətlərin iştirakçısı olan milli dövlətlərin davranışlarını təhlil edərək bu prosesdə Azərbaycanın yeri və rolu məsələlərinə toxundu. Məhz bu kontekstdə media institutu və onun fəaliyyətini önə çəkən Prezident Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işində transmilli media resurslarının fəaliyyətini obyektiv qiymətləndirərək onları qlobal informasiya məkanında rəy formalşdıran institusional vahidlər kimi təqdim etdi. Xarici media ilə ünsiyyətin intensiv olmasını da bu məsələ ilə əlaqələndirərək transmilli medianın imkanlarından istifadə etməklə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasının vacibliyini vurğuladı". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Baş redaktorun sözlərinə görə, ümumiyyətlə milli mətbuatımızı və onun fəaliyyətini bir daha yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirdi ki, "mən Azərbaycan mediasına həmişə böyük dəstək göstərmişəm. Mənim media nümayəndələri ilə çoxsaylı görüşlərim bunun əyani sübutudur və həmişə çalışmışam ki, öz işimlə medianın inkişafına dəstək verim. Şadam ki, Azərbaycan mediası bu gün ölkəmizin həyatında önəmli rol oynayır. Deyə bilərəm ki, mən də öz işimdə mediadan gələn xəbərlərə istinad edirəm, bəzi hallarda mediadan bir çox məsələləri öyrənirəm, dərhal reaksiya verirəm. Bu barədə mən bir neçə dəfə öz fikirlərimi bildirmişəm və hesab edirəm ki, gələcəkdə Azərbaycan mediası ölkəmizin həyatında bundan da böyük rol oynayacaqdır". Bu fikirlər istər milli mətbuatımızın fəaliyyətinin yüksək qiymətləndirilməsi baxımından istərsə də onun gələcək inkişafı baxımından olduqca əhəmiyyətlidir. Bununla yanaşı biz bilirik ki, mətbuat hər bir cəmiyyətdə fikir plüralizimini, söz azadlığını təmin edən ictimai institutlardan biri kimi çıxış edir və əslində bu fikirlər ölkəmizdə söz və mətbuat azadlığının təmin olunmasının, mətbuatın xüsusilə də çap mətbuatının və internet resurslarında mövcud olan müxtəlif yeni mətbu nümunələrin problemlərinin həlli məsələlərinin, jurnalistlərin məişət və sosial problemlərinin bundan sonra da Prezidentin diqqət mərkəzində olacağına işarə idi.



Ümumiyyətlə Prezident İlham Əliyev öz müsahibəsində hazırki beynəlxalq münasibətlər və onun gücə əsaslanan yeni reallıqlarından tutmuş, ölkəmizin uzun illərdir məhz güc mərkəzinə çevrilməsi üçün həyata keçirdiyi milli strategiyaya qədər eyni zamanda beynəlxalq iqtisadi layihələri uğurla həyata keçirməyimizdən xalq-iqtidar birliyinə qədər, sosial siyasət, aqrar sektorun inkişafı və s. kimi mühüm məsələlərə toxunaraq bundan sonra da islahatların davam etdiriləcəyini diqqətə təqdim etməklə bütün bunları milli maraqlarımızın təmin olunması istiqamətində atılan addımlar kimi xarakterizə etdi".

## "Prezidentin siyasətinin mərkəzində vətəndaş amili dayanır"



"Azərbaycanda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son atılan addımlar bunu bir daha sübut etmiş olur". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Tahir Rzayev deyib. O bildirib ki, Azərbaycanda iqtisadi imkanlar artdıqca, ilk atılan addımlar məhz ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılmasına yönəldilir. Son illər bu istiqamətdə mühüm işlərin görüldüyünü deyən deputat söyləyib ki, ölkəmizdə köçkünlər üçün 100-dən çox şəhərcik tikilib, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 6500-dən çox mənzil verilib.

Prezident İlham Əliyevin minimum əmək haqlarının artırılması ilə bağlı sərəncamına toxunan T.Rzayev qeyd edib ki, sərəncam əhalinin rifahı halının yaxşılaşdırılması istiqamətində növbəti addımdır. Azərbaycan Prezidenti atdığı bütün addımlarla daim xalqın yanında olduğunu bir daha sübut etmiş olur. Minimum əmək haqqının artırılması da vətəndaşlara olan yüksək diqqət və qayğının nəticəsidir. Azərbaycan vətəndaşı bilir ki, ən ağır vəziyyətdə Azərbaycan dövləti onun yanında olacaq. Dövlət isə tam əmindir ki, vətəndaş hər zaman dövlətin arxasında olacaq".

***Nailə Məhərrəmova***

# Əli Əhmədov: İnternetdə təhqirlərin qarşısını almaq üçün texniki və hüquqi tənzimləmə yolları tapılmalıdır

***İnternetin inkişafının müsbət tərəfləri ilə yanaşı, mənfi tərəfləri də var. Bu gün insanlar sosial şəbəkələrdə təhqirlərə, mənəvi terrora məruz qalırlar. Bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov dünən qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşündə deyib.***



Əli Əhmədov bildirib ki, əsas problem odur ki, sosial şəbəkələrdə özünü qanuni yolla müdafiə etmək imkanları da yoxdur: "İstənilən adamı istənilən formada təhqir etmək, mənəvi terrora məruz qoymaq çox asandır, lakin bundan özünümüdafiə mexanizmi yoxdur. Bu bir bəla olaraq bütün dünyada geniş vüsət alıb. Bu problem cəmiyyətdə bir gərginlik yaradır. Bu problem tək Azərbaycanda deyil, digər dövlətlərdə də mövcuddur. Ancaq Azərbaycanda bu hal eybəcər formadadır".

İcra katibi qeyd edib ki, ayrı-ayrı ölkələrdə bu problemin qarşısını almaq üçün yollar axtarılır, texniki və hüquqi baxımdan cəhdlər edilir: "Azərbaycanda da bu problemin qarşısını almaq üçün hüquqi normalar var, ancaq bunun tətbiq edilməsi mexanizmi mövcud deyil. Bəzi ölkələr bu problemin qarşısını almaq üçün internetin məhdudlaşdırılmasına da gedirlər. Mən internetin məhdudlaşdırılmasının tamamilə əleyhinəyəm, ancaq biz müzakirələr aparıb texniki və hüquqi tənzimləmə yollarını tapmalıyıq ki, bu eybəcərliklərin qarşısı alınsın".

# "Prezident İlham Əliyev vətəndaşları narahat edən bütün problemlərin qısa müddətdə həll olunacağı anonsunu verdi"

***Prezident İlham Əliyevin Real televiziyasına müsahibəsinin əvvəlində ilkin olaraq məhz media barədə irəli sürdüyü önəmli fikirlər belə deməyə zəmin yaradır ki, ölkə başçımız daim mediaya önəm verir, xüsusilə mətbuatın inkişafına dəstək göstərir. Bunu Trend-ə açıqlamasında "Səs" Media Qrupunun baş direktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.***



Onun sözlərinə görə, dövlət başçısının öz işini mediaya istinad edərək qurması barədə dediyi fikirlər hər bir mətbuat işçisi üçün bir məsuliyyət faktoru kimi qəbul edilməlidir: "Yəni bu gün mediada çalışan hər bir jurnalist, hər bir mətbuat işçisi öz peşəkarlığını artırmaqla yanaşı, həm də bilməlidir ki, verilən informasiyalar ən ali məqamda diqqət mərkəzində olur, qiymətləndirilir və nəticələr çıxarılır. Əbəs deyil ki, cənab İlham Əliyev bu barədə danışarkən ölkəmizdə cərəyan edən müxtəlif hadisələri mətbuat vasitəsilə öyrəndiyini deyib, eləcə də Azərbaycan mediasının ölkəmizin həyatında bundan da böyük rol oynayacağını vurğulayıb".

Dövlət başçımızın nəyə görə xarici mediaya daha çox müsahibələr verməsi məsələsinə də toxunan B.Quliyev hesab edir ki, bu addım eyni zamanda Azərbaycan həqiqətlərinin reallıqlarının beynəlxalq aləmə çatdırılmasında böyük əhəmiyyət daşıyır: "Prezident İlham Əliyev bu məsələyə aydınlıq gətirərək qeyd etdi ki, dünyada informasiya müharibəsi gedir və ölkəmizlə bağlı həqiqətə uyğun olmayan saxta materiallar dünya ictimaiyyətinin diqqətinə çatdırılır. Düşünürəm ki, ölkə rəhbərimizin xarici mediaya daha çox müsahibə verməsi inkişaf, tərəqqi və islahatlar yolu tutmuş, heç bir xarici diktəni qəbul etməyən, müstəqil siyasət yürüdən Azərbaycan dövlətinin gerçək tərəflərini çatdırmaq məqsədini daşımaqdadır. Çünki dövlət başçımız dəfələrlə öz çıxışlarında vurğulayıb ki, Azərbaycan gücləndikcə, qüdrəti artdıqca, ona qarşı müxtəlif güclər tərəfindən təzyiqlərə, təhdidlərə yol verilir. Lakin cənab İlham Əliyev ölkə rəhbəri olaraq, xarici medialar vasitəsilə əsl həqiqətləri bütün sübut və dəlilləri ilə ortaya qoyur, saxta informasiyaların ifşa edilməsi üçün ciddi arqumentlərlə beynəlxalq mətbuat çevrəsinə əhəmiyyətli tezislər verir. Bu addımın özü əslində çox mühüm və düşünülmüş strategiyadır ki, Prezident İlham Əliyev tərəfindən reallaşdırılmaqda davam edir".

Siyasi ekspert qeyd edib ki, bu gün Azərbaycan dövləti sabit və inkişaf edən ölkə olmaqla yanaşı, həm də xarici siyasətin yürüdülməsində bir sıra məqamları əsas olaraq götürür və onlardan biri də milli-mənəvi dəyərlərin qorunması ilə bağlıdır: "Prezident İlham Əliyev müsahibəsində bu kimi incə və kifayət qədər düşünülmüş strateji məqama toxunaraq vurğulayıb ki, onun üçün, bütövlükdə isə Azərbaycan xalqı üçün əsas olan milli dəyərlərdir. Azərbaycan dövləti mühüm hədəf kimi həmin məqamı nəzərdə tutur. Daha dəqiq desək, balanslaşdırılmış siyasət aparıla bilər, amma bu elə olmalıdır ki, həmin siyasət xalqımızın milli maraqlarına cavab versin. Cənab Prezident bu məsələni önə sürərək deyib ki, ölkənin xarici siyasətində milli maraqlar qorunur, mümkün risklər isə aradan qaldırılır. Ona görə də dövlət başçımız "Bizim siyasətimiz milli maraqlar üzərində qurulub" mesajını verərək, bu siyasətin daim həmin xətt üzrə inkişaf etdiriləcəyini bəyan edib".

B.Quliyev bildirib ki, Prezident İlham Əliyevin həmin istiqamətdə göstərdiyi fəaliyyət və irəli sürdüyü fikirlər əsasında islahatlar, eləcə də həmin islahatlardan bəhrələnən Azərbaycan vətəndaşına xidmət məramı dayanmaqdadır:

"Artıq bildiyimiz kimi, cari ilin əvvəlindən indiyə qədər dövlət başçımız tərəfindən bir sıra inqilabi islahat meyarları müəyyənləşdirildi və həmin islahatlardan səmərə götürən, faydalanan da sadə Azərbaycan vətəndaşı oldu. Şəhid ailələrindən başlayaraq, müharibə əlillərinə, eləcə də sosial təminatı yetərli olmayan insanlarımıza qədər göstərilən dövlət qayğısının təməlində cənab İlham Əliyevin şəxsi təşəbbüsü və siyasi iradəsi dayanmaqdadır. Təbii ki, biz bura minimal əməkhaqlarının qaldırılmasını və s. faktları da əlavə edə bilərik. Ancaq əsas fikir budur ki, dövlət başçımız müsahibəsində nöqsanların da olduğunu qeyd edib, eləcə də vətəndaşları narahat edən bütün problemlərin qısa müddətdə həll olunacağı anonsunu verib. Bax, budur dövlətin vətəndaş amilini prioritet olaraq götürməsi və insan kapitalına dəyər verməsi. Düşünürəm ki, bu gün dünyanın ən inkişaf etmiş dövlətlərində belə, ölkə rəhbərləri tərəfindən vətəndaşlar üçün bu cür siyasi iradə göstərilsin. Əbəs deyil ki, son illərdə bir sıra aparıcı xarici ölkələrdə Azərbaycanda aparılan ən müasir islahat modellərinə müraciətlər edilir, ideyalar öyrənilir. Buna daha bir misal kimi, Prezident İlham Əliyevin komandasının son illərdəki fəaliyyətlərini də göstərə bilərik. İldə bir neçə dəfə müxtəlif nazirliklərin rəhbərləri hətta ən ucqar bölgələrimizə qədər gedərək, orada yaşayan insanların sosial vəziyyətləri və s. ilə maraqlandır, problemlərini öyrənir, həmin problemlərin həlli üçün müvafiq addımlar atırlar".

Baş redaktor vurğulayıb ki, bütün bunlar Prezident İlham Əliyevin yürütdüyü və uğurlara əsaslanan mentiqi siyasətinin aşkar, bariz göstəricilərdir: "Ona görə də hesab edirəm ki, xalqımız daim dövlətinin yanındadır və dövlət başçımızın da vurğuladığı kimi, dövlət də hər zaman xalqının yanındadır. Bu etimad, bu inam isə, əlbəttə ki, həmin vəhdətin, sarsılmaz iradənin tərənnümü və təcəssümüdür".

## Vüqar Rəhimzadə: "Prezident İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasətin əsasında milli maraqlarımızın müdafiəsi dayanır"



***Bu gün Azərbaycan mediası özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. İstər KİV-in maddi-texniki bazasının möhkəmləndirilməsi, istərsə də jurnalistlərin sosial rifahının, eyni zamanda, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb. Bu sırada dövlət dəstəyini xüsusi vurğulamaq lazımdır. Məhz Prezidentimizin KİV-ə olan diqqət və qayğısı, onun göstərişi ilə 2013-cü ildən başlayaraq jurnalistlərin dövlət tərəfindən pulsuz mənzillərlə təmin edilməsi və s. bunun əyani sübutudur. Prezident İlham Əliyev fevralın 12-də Real televiziyasına geniş müsahibəsində mediaya həmişə böyük dəstək göstərdiyini vurğulayıb.***

"Mənim media nümayəndələri ilə çoxsaylı görüşlərim bunun əyani sübutudur və həmişə çalışmışam ki, öz işimlə medianın inkişafına dəstək verim. Şadam ki, Azərbaycan mediası bu gün ölkəmizin həyatında önəmli rol oynayır", - deyən dövlətimizin başçısı əmin olduğunu bildirib ki, Azərbaycan mediası ölkəmizin həyatında bundan da böyük rol oynayacaq. Sözsüz ki, bu dəyərli fikirlər biz jurnalistləri qürurlandırdığı kimi, qarşımıza böyük məsuliyyət də qoyur. Hər bir jurnalist öz fəaliyyətində bu məqamlara xüsusi diqqət yetirməli, milli maraqları hər şeydən uca tutmalı, dövlətə, xalqa xidməti öz peşəsinin əsas istiqaməti kimi müəyyənləşdirməlidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, bu gün dövlət siyasətinin mühüm istiqamətlərindən biri Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə doğru, düzgün şəkildə çatdırılmasıdır: "Artıq uzun illərdir ki, bu sahədə uğurlu addımlar atılır. Bu gün istər hökumət, istərsə də vətəndaş cəmiyyəti nümayəndələri səviyyəsində xarici ölkələrdə təbliğat işləri uğurla aparılır. Beynəlxalq arenalarda, tədbirlərdə, kürsülərdə Azərbaycan həqiqətləri dünyaya çatdırılır. Bütün bunlara baxmayaraq, Azərbaycanın uğurlarını gözü götürməyən bəzi qüvvələr qərəzli, yalan, böhtan xarakterli məlumatlar yayaraq ölkəmizin beynəlxalq imicinə zərbə vurmağa cəhd edirlər. Bu cür qara piarlar indiyədək olub və bundan sonra da olacaq. Biz isə harada olmağımızdan asılı olmayaraq əsl vətəndaş mövqeyi nümayiş etdirməklə bu kimi hallara qarşı daim mübarizə aparmalı, dövlətimizin maraqlarını və milli mənafeyimizi qorumalıyıq. Azərbaycan Prezidenti Real televiziyasına müsahibəsində bu məsələlərə toxunaraq qeyd edib ki, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq xüsusi əhəmiyyət daşıyan bir məsələdir. "Bizə qarşı aparılan bütün bu təbliğatın qarşısında öz həqiqətlərimizi ortaya qoyuruq, Azərbaycanı müasir, güclü dövlət kimi tanıtdırırıq və ölkə haqqında həqiqətləri çatdırırıq", - deyən dövlətimizin başçısı bildirib ki, xarici mediada mövcudluğumuz, sözlərimizin çatdırılması xüsusi əhəmiyyət daşıyır. Bu amil bir daha onu nümayiş etdirir ki, Prezidentimizin yürütdüyü uğurlu xarici siyasətin əsasında milli maraqlarımızın müdafiəsi dayanır".

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, bu il ölkəmizin həyatında mühüm uğurlarla yadda qalacaq: "Prezident İlham Əliyevin rəhbərliyi ilə bu ilin əvvəlindən başlayaraq mühüm islahatlara start verilib. Xüsusilə sosial-iqtisadi sahədə fərman və sərəncamlar imzalanıb. Real televiziyasına müsahibəsində "2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır", - deyən dövlətimizin başçısı həyata keçirdiyi uğurlu siyasətlə verdiyi vədlərə sadiqliyini nümayiş etdirməklə yanaşı, hər bir azərbaycanlının Prezidenti olduğunu təsdiqləyir."

# Heç bir halda təhqir və söyüş siyasi mübarizə metoduna çevrilməməlidir



*QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyevin yap.org.az-a müsahibəsi*

***- Azay müəllim, bu gün YAP-ın mərkəzi qərargahında partiyanın sədr müavini və icra katibi Əli Əhmədovla QHT-lərin görüşü keçirildi. Görüşdə hansı məsələlər müzakirə edildi və görüşün nəticələrini necə qiymətləndirirsiniz?***

- İlk öncə onu qeyd edim ki, ölkənin aparıcı QHT-ləri ilə hakim partiyanın görüşləri və bu görüşlərdə ictimai əhəmiyyətli məsələlərin müzakirəsi yeni təcrübə deyil, biz əvvələr də bu formatda görüşlər keçirmiş, ən müxtəlif məsələləri açıq və səmimi ortamda müzakirə etmişik. Bu da təbiidir. Çünki, hakim partiya üçün hər zaman ictimai rəy daşıyıcılarının və bütövlükdəictimai sektorun ölkədə və beynəlxalq aləmdə baş verən bu və yadigər hadisələrə münasibəti maraqlı olub, QHT-lərə də hakim partiyanın ölkənin inkişafı, mövcud problemlərin həlli ilə bağlı atacağı addımları öyrənmək və bu istiqamətdə öz təkliflərini vermək xüsusi əhəmiyyət kəsb edib.

Bu dəfə də belə oldu. Bu günkü görüşdə çox vacib və eyni zamanda bir sıra problemli məsələləri müzakirə etdik. Ən çox müzakirə edilən məsələ sosial medianın hazırkı vəziyyəti, bəzi istifadəçilər tərəfindən sosial şəbəkələrdə insanların heysiyyatına və mənəviyyatına edilən açıq hücumlar, təhqir və "söyüş maşını"nın işə salınması və bundan doğan narahatlıqlar oldu. Təəssüf ki, bəzi hallarda sosial şəbəkələr mədəni ünsiyyət və kommunikasiya funksiyasını itirərək daha çox problemli insanların, özünü idarə edə bilməyənlərin, separatçıların, terrorçuların, qatillərin və bir sözlə bütün dəyərləri və qanunları tapdalayan adamların tribunasına çevrilir.

Xalqların, millətlərin adət-ənənələri və mental dəyərləri nəzərə alınmır. Hamımız bilirik ki, söyüş söymək, xüsusilə ailə üzvlərini ağır söyüşlərlə təhqir etmək, alçaltmaq bizim xalq üçün ən ağır və heç vəchlə qəbul edilməyən və bağışlanmayan bir hərəkətdir, naqislikdir. Həm dinimiz, həm qanunlarımız, həm də beynəlxalq hüquq şəxsiyyətin alçaldılmasını yol verilməz hesab edir və buna görə cinayət məsuliyyətini nəzərdə tutur. Lakin buna baxmayaraq, bu kimi hallar hələ ki, azalmır, belə hərəkətlərə qarşı hər hansı təsirli tədbirlər görülmür, sosial şəbəkələri yaradan şirkətlər də belə qanunsuzluqlara göz yummaqda davam edirlər.

***- Azay müəllim, haqlı olaraq qeyd etdiniz ki, Azərbaycana qarşı "söyüş maşını" işə salınıbdır. Sizcə bu "maşını" dayandırmaq mümkündürmü?***

- Məncə sizin sualınıza cavab verməmişdən öncə daha iki suala aydınlıq gətirmək lazımdır: bu "söyüş maşını" niyə yaradılıb? kimlər bu oyunda, yəni "söyüş maşının"da iştirak edir? Bu suallara aydınlıq gətirəndən sonra onu necə dayandırmaq haqqında düşünmək olar.

Şübhəsiz ki, bu sualların hər biri dərin təhlil və əhatəli cavab tələb edir. Ancaq mən çalışacam hər üçü ilə bağlı qısa olaraq fikirlərimi bildirəm.

### "söyüş maşını" niyə yaradılıb?

***Birinci, "söyüş maşını" niyə yaradılıb?***

Baxın görün, "söyüş maşını" nə vaxt tam gücü ilə işə düşdü. Son iki ildə. 2015-ci ildə manatın devalvasiyasının şokundan və keçici iqtisadi tənəzzüldən dövlətimizin büdrəyəcəyini və müvazinətinin itirəcəyini sevinclə gözləyən xaricdəki anti-Azərbaycan dairələr və daxildəki radikallar tam fərqli, onlar üçün gözlənilməz olan vəziyyətlə üz-üzə qaldılar. Belə ki, cənab prezident İlham Əliyev vəziyyəti düzgün qiymətləndirdi və qətiyyətli addımlar ataraq qısa müddətdə ölkəni çətin vəziyyətdən çıxarmağı bacardı. Prezident İlham Əliyevin ən böyük uğuru o idi ki, yaranmış böhranı fürsətə çevirərək ölkədə geniş miqyaslı islahatlara başladı. Nəticədə, Azərbaycan dünyanın ən 10 islahatçı ölkəsinə çevrildi, uzun müddət gözlədiyimiz məcburi tibbi sığortaya keçid haqqında qərar verildi, kənd təsərrüfatında, gömrük və vergi sistemində köklü dəyişiklər başladı, sosial sahədə bir çox ciddi problemlər öz həllini tapdı, bir sözlə mahiyyətcə yeni və modern Azərbaycan quruculuğuna başlanıldı. Ən vacibi isə xalqımız cənab İlham Əliyevin bu xidmətlərinə görə böyük səs çoxluğu ilə onu növbəti müddətə Azərbaycanın prezidenti seçdi.

Belə bir vəziyyətdə Azərbaycanı istədikləri kimi idarə etmək arzusunda olan xarici güclər və onların daxildəki dəstəkçiləri əllərinin hər şeydən üzüldüyünü, indiyə kimi tətbiq etdikləri mexanizmlərin və üsulların işə yaramadıqlarını görüb yeni metodlar üzərində işləməyə başladılar.

Nə yolla olur olsun, Azərbaycan da ictimai siyasi sabitliyi pozmaq, təhlükəsizliyi təhdid etmək, dövlətimizin beynəlxalq imicini zədələmək və dövlət atributlarını və hakimiyyət nümayəndələrini gözdən salmaq üçün ən müxtəlif ssenarilər düşündülər.

Xalqımızın həssasiyyətini bildikləri üçün özlərinin ağlınca "efefktiv" metod tapdılar. Bizi ən zəif yerimizdən vurmağa, ən çox önəm verdiyimiz mental dəyərlərimizə və milli xüsusiyyətlərimizə xaincəsinə hücum etməyə başladılar. Bunun üçün ən təsirli və eyni zamanda çirkin mexanizm olan təhqir və "söyüş maşını"nı işə saldılar. Əsas hədəf isə bütün bu islahatların müəllifi, müstəqil dövlətimizn, milli təhlükəsizliyimizin, inişafın və rifahın qarantı olan ölkə prezidenti cənab İlham Əliyev və onun ailə üzvləri oldu. Məncə "söyüş maşını" niyə yaradılıb sualının cavabını burda axtarmaq lazımdır.

### İkinci, kimlər bu oyunda, yəni "söyüş maşının"da iştirak edir?

Söyüş söyənləri təhlil edərək onları 3 qrupa bölmək olar :

1-ci qrup, daha radikal qrupdu. Bu qrupa yuxarıda qeyd etdiyim anti-Azərbaycan dairələrin əlində alətə çevrilən, tam olaraq xaricdən maliyyələşən şəxslər daxildir. Bunlar üçün heç bir milli dəyərin və mental xüsusiyyətin əhəmiyyəti qalmamışdır. Bu qrupun "söyüş maşını"na "benzin" tökənlər arasında son zamanlar azərbaycan dilini mükəmməl bilən ermənilər və Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları daha çox fəallıq nümayiş etdirirlər.

2-ci qrupa, radikal siyasi müxalifətin üzvlərini aid etmək olar. Təəssüf ki, bu qrup marginallaşmış və öz aləmlərində guya siyasətlə məşğul olduqlarını zənn edənlərdir. Bunlar sivil siyasi mübarizə metodundan imtina edərək siyasətə söyüşü və təhqiri gətirmək istəyənlərdir. Bu qrup, ölkədə baş verən bütün müsbət dəyişikləri və inkişafı inkar edir, nəyin bahasına olur-olsun hakimiyyətə gəlməyi qarşılarına məqsəd qoyublar. Ona görə də milli hisslərə və dəyərlərə məhəl qoymayaraq bütün dövlət və hakimiyyət nümayəndələrini ağır söyüşlərlə təhqir etməkdən, etik normaları ayaqlar altına atmaqdan çəkinmirlər.

3-cü qrupa isə hər hansı bir xüsusi səbəb və ya motivasiya olmadan, nə baş verdiyini bəlkə də tam anlamayıb ümumi axına düşüb gedənlər, siyasi proseslərdən uzaq olanlardı. Onların sayı və aktivliyi az osada, hərdən söyüş qrupuna dəstək verir və onların təsiri altında əxlaqsız ifadələr işlədərək insanları təhqir edirlər.

İndi isə sizin sualınıza cavab verməyə çalışım.

### "Söyüş maşını"nı dayandırmaq mümkündürmü?

Bu sual ən çətin və ən mürəkkəb sualdır. Çünki, bunun birmənalı şəkildə və tam uduşlu formatda cavabı bir az çətindir. Səbəb isə qeyd etdiyim kimi, "söyüş"ün bir layihə olaraq Azərbaycanda icra olunması və onun arxasında duran qüvvələr və onların maliyyə imkanlarıdır. Lakin söyüş və təhqirin cəmiyyətimiz üçün yad element olduğunu, milli genetikamızın bu cür əxlaqsızlığı qəti olaraq rədd etdiyini nəzərə alaraq, bu bəlanı ciddi şəkildə azaltmaq və tədricən aradan qaldırmaq mümkündür.

## Söyüş kampaniyasının "qaiblər"i radikal siyasi düşərgənin rəhbərliyi tərəfindən mükafatlandırılır

Məncə bizim əsas hədəfimiz "söyüş maşının"da iştirak edən 2-ci və 3-cü qrup olmalıdır. Çünki, qeyd etdiyim 1-ci qrup itirilmiş və xalqdan qopmuş sayıldığına görə onlara baş qoşmağa dəyməz. Lakin digər iki qrup bu prosesdən çəkilsə, birincilərin varlığı o qədər hiss olunmaz və təsirləri azalar.

Bunun üçünsə ilk növbədə söyüşü siyasətə gətirməyə çalışanlar bundan imtina etməlidir. Bəzən isə tam əksini müşahidə edirik, sanki "kim daha iyrənc və "kreativ" söyüş söyər?" yarışması keçirilir və radikal siyasi düşərgənin rəhbərliyi tərəfindən "qaiblər" mükafatlandırılır. Bu çox təhlükəlidir və arzuolunmaz nəticələrə gətirib çıxara bilər.

Cəmiyyət isə bunu ikrahla qarşılayır. Biz siyasətdə bir-birimizi xoşlamaya bilərik, opponentlik edə bilərik, tənqid edə bilərik, hətta nifrət də edə bilərik, lakin ailə, namus məsələsini siyasətə gətirmək ən böyük cinayətdir, əxlaqsızlıqdır.

Bunu edənlər anlamalıdırlar ki, istənilən söyüş aqressiya ilə qarşılanır və cavabı adekvatdır.

Biz isə bunu istəmirik. Bu baxımdan "söyüş maşınının" qarşısını ala bilməyən və başqa yol tapmayan bəzi siyasətçilərin əlacsızlıqdan məcbur qalaraq "söyüşə-söyüşlə cavab verək" çağırışını anlasam da, onu doğru hesab etmirəm. Çünki, təcrübə göstərdi ki, elə "söyüş maşınını" icad eləyənlərə də tam bu lazımdır ki, durum daha da gərginləşsin və vəziyyət nəzarətdən çıxsın. Nəticədə qan tökülsün və ictimai-siyasi sabitlik pozulsun, siyasi mübarizə zorakılığa və qarşıdurmaya yönəldilsin. Bu bir siyasi tələdir və hakimiyyət nümayəndələri bunu bildiyinə görə bu tələyə heç vaxt düşməz. Digər tərəfdən xalqımız sivil və mədəni xalqdır, heç bir halda təhqir və söyüşü siyasi mübarizə metoduna çevirə bilmərik və çevirməməliyik.

Ona görə də siyasilər öz tərəfdarlarına müraciət etməli və söyüşlə, təhqirlə mübarizə aparmağın yol verilməz və təhlükəli olduğunu bəyan etməlidir, tərəfdarlarını belə bir hərəkət etməkdən çəkindirməli və bu işi nəzarətdə saxlamalıdır. Ehtiyac yaranarsa bununla bağlı partiyalar arasında ayrıca bir görüşü də təşkil etmək olar. Məncə bu "söyüş maşınının" ciddi şəkildə zərərsizləşdirməyin ən doğru və ən təsirli yolu ola bilər.

İkinci yol isə hüquqi müstəvidə atılan addımlar ola bilər. Burada isə həm sosial şəbəkələrin, həm də söyüş söyənlərin qanunvericiliyə uyğun olaraq hüquqi məsuliyyətə cəlb olunması müzakirə oluna bilər. Bundan başqa təhqir və söyüş kontenti olan yazıları və şərhləri müvafiq qaydada şikayət edib onların silinməsinə və ya həmin şəxslərin profillərinin və səhifələrinin bağlanılmasına nail olmaq mümkündür.

***- Azay müəllim, Sizcə QHT-lər bu istiqamətdə nə iş görə bilərlər?***

- QHT-lərin bu cür həssas məsələlərin həllində rolu çox böyükdür. Bu gün biz görüşdə bu barədə ətraflı danışdıq. Onlar da hazırkı vəziyyətdən çox narahatdırlar. Görüşdə maraqlı təkliflər də səsləndirildi. Hesab edirəm ki, bütün QHT-lər çalışmalıdır ki, ölkəmiz və xalqımız əleyhinə aparılan bu çirkili oyunun pozulmasında, "söyüş maşınının" durdurulmasında daha fəal olsunlar. Onların nüfuzu və ictimai çəkisi imkan verir ki, siyasi mövqeyindən və hansı partiyaya aid olmasından asılı olmayaraq bu məsələyə münasibət bildirsin və bu biabırçılığın qarşısını tezliklə alınması istiqamətində təsirli tədbilər görsünlər. İnanıram ki, bizim diqqətimizi əsas strateji hədəfdən yayındıraraq bu kimi mənasız işlərə yönləndirməyə cəhd edənlərə QHT-lər təkcə öz prinsipal mövqeləri ilə deyil, həm də dövlət və vətəndaş birliyini və həmrəyliyini daha da möhkəmləndirməklə də cavab verəcəklər.

# "Prezidentin fikirləri Ermənistana xəbərdarlıq olmalıdır"

***"Prezident İlham Əliyev ötən gün verdiyi müsahibəsində bir çox mühüm məsələlərə, o cümlədən Dağlıq Qarabağ probleminə toxundu. Ortada olan fakt Ermənistanın ölkəmizin torpaqlarının bir hissəsinin işğal etməsi və indiyədək ərazi bütövlüyümüzü tanımaqdan imtina etməsidir. Məhz bu tərs və beynəlxalq hüquqa zidd olan mövqe həm Ermənistanın əvvəlki rəhbərləri olan Koçaryan və Sarkisyanın hakimiyyətdən getməsinə, xalqına qarşı cinayətinə görə hüquq mühafizə orqanları qarşısında cavab verməsinə gətirib çıxarıb". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib.***



Onun sözlərinə görə, Azərbaycanda ümid edirdilər ki, yeni hakimiyyət onların taleyindən nəticə çıxaracaq və məsələni ədalətlə həll edilməsinə üstünlük verəcək: "Ancaq bununla belə hələ də yeni hakimiyyətində Dağlıq Qarabağ məsələsində mövqeyi tam aydın deyil. Gah onlar danışıqlara gedir, məsələnin konstruktiv həllinə maraq göstərirlər, bəzən isə qəbul edilməsi mümkün olmayan şərtlər irəli sürürlər. Buna görə də Azərbaycan problemin həllinin vacibliyini əsas götürərək, bütün variantları daim gündəlikdə saxlayır".

A.Mirzəzadə söyləyib ki, burada danışıqların sülh yolu ilə davam etdirilməsi, Ermənistan tərəfini ərazi bütövlüyümüzü tanımağa çağırış siyasəti, eyni zamanda hərbi potensialımızın artırılması məsələsi dayanır: "Azərbaycan öz uğurlu iqtisadi siyasəti nəticəsində bu gün güclü silahlı qüvvələr saxlamaq iqtidarındadır. Ən yeni silahlar alınır, hərbi təlimlər keçirilir, zabit və əsgərlərimizin döyüş ruhu yüksəkdir. Bundan irəli gələrək, 3 il bundan əvvəl aprelində Azərbaycan strateji yüksəklikləri ələ keçirdi. Ötən ilin may ayıda Naxçıvanda Günnük kəndi işğaldan azad edildi. Bu isə Ermənistandan Dağlıq Qarabağ bölgəsinə gedən arteriyaları nəzarətdə saxlamağa imkan verdi". Azərbaycan qurduğu silahlı təchizat, taktiki hazırlıq cəhətdən Ermənistandan qat-qat üstün olduğunu deyən deputat vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə açıq şəkildə bildirir ki, biz danışıqlara üstünlük versək də problemin hərbi yolla həlli gündəlikdən çıxmayıb: "Paşinyan hakimiyyəti bunu diqqətdə saxlamalıdır. Yeni Aprel hadisələri baş verərsə, artıq bu dəfə Paşinyanın nə dərəcədə hakimiyyətdə qalacağı ciddi müzakirə mövzusu ola bilər. Bu baxımdan cənab Prezidentin ötən gün verdiyi müsahibədə Dağlıq Qarabağ probleminin həlli ilə əlaqədar ölkəmizin mövqeyini səsləndirməsi, Ermənistana böyük bir xəbərdarlıq olmalıdır. Həmçinin Azərbaycan cəmiyyəti bilməlidir ki, problemin həlli istiqamətində görülən işlər nədən ibarətdir və Azərbaycan Prezidentinin siyasəti xalqımızın milli maraqlarına tam uyğun olaraq həyata keçirilir".

A.Mirzəzadə qeyd edib ki, Ermənistandan hakimiyyətin tam şəkildə formalaşmayıb: " Ölkə rəhbərlərinin rəsmi görüşü hələ baş tutmayıb. Beynəlxalq tədbirlər çərçivəsində həyata keçirilən qeyri-rəsmi görüşlər problemin həlli istiqamətində ciddi danışıqların başladığını kimi hesab etmək olmaz. Ümid edirik ki, Paşinyan real həyatın incəliklərinə vardıqca, işğalın Ermənistan üçün böyük bəla olduğunu fərqinə varmalıdır. Bu baxımdan hər şey Paşinyan və Ermənistanın seçimindən asılı olacaq. Danışıqlar yolu Ermənistan üçün ucuz və sərfəli yoldur, qarşıdurmaya üstünlük verəcəklərsə, o zaman onlar layiqli cəzalarını alacaqlar".

## "Ölkə başçısının fikirlərində mediamızın daha obyektiv olmasına çağırış var"



"Prezident İlham Əliyev ötən gün verdiyi müsahibəsində Azərbaycan mediası ilə əməkdaşlığa önəm verdiyini və bu əməkdaşlığın Onun üçün çox dəyərli olduğunu bir daha göstərdi. Jurnalistlər üçün qürurverici olmalıdır ki, ölkənin prezidenti idarəçilikdə medianı sözün həqiqi mənasında özünün səmərəli əməkdaşı kimi görür, ona güvənir və daha ədalətli idarəçilik naminə medianın xəbərlərinə etimad göstərir". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib. O bildirib ki, Cənab Prezidentin müsahibəsi zamanı medianın ölkənin həyatında önəmli rol oynadığına, bu rolun gələcəkdə daha da güclənəcəyinə inandığını bildirməsi çox dəyərlidir: "Daha dəqiq yanaşsaq prezidentin ölkə mediası və xarici media ilə əməkdaşlıqları bir-birini tamamlayan məsələdir. Belə ki, hər iki halda Prezidentin əməkdaşlıq prinsiplərinin Azərbaycanın dövlət mənafeləri üzərində qurulduğunu görürük. Prezident Azərbaycan mediasına inanır, xarici medianın imkanlarına isə dövlətimiz barədə qərəzli yanaşmaları neytrallaşdırmağın tutarlı üsulu kimi baxır".

A.Quliyev söyləyib ki, ölkə başçısının fikirlərində eyni zamanda Azərbaycan mediasının daha obyektiv olmasına çağırış məqamları da var: "Belə ki, əgər dövlət başçısı öz işində medianın xəbərlərinə istinad etdiyini açıq deyirsə, deməli media daha obyektiv və ədalətli olmalıdır ki, Prezident daha dəqiq qənaətlərə gələ bilsin. Azərbaycan mediası ilə Prezidentin səmərəli əməkdaşlığının möhkəm özülü buradadır".

Baş redaktor qeyd edib ki, Prezident mediadan mötəbər xəbərlər aldığı kimi bu müsahibəsində özü də media mənsublarına çox dəyərli təhlil və düşüncə materialları verdi: "Jurnalistləri düşündürən bütün məsələlər cavablandırıldı. Eyni zamanda jurnalist təhlilləri ilə xalqımıza izah və şərhlərlə çatdırılmalı olan məqamlar açıqlandı".

***Nailə Məhərrəmova***

## Cari ildə 56 şəhər və rayonda əmək yarmarkaları təşkil olunacaq

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən bu il üçün ölkəmizin şəhər və rayonlarında əmək yarmarkalarının təşkili üçün yerli icra hakimiyyətləri və işəgötürənlərlə əməkdaşlıq şəraitində hazırlıq işlərinə başlanılıb. Nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, yarmarkaların bu il ərzində respublikamızın 56 şəhər və rayonunda təşkili nəzərdə tutulur.

Əmək yarmarkaları zamanı idarə, müəssisə və təşkilatlarda olan vakant iş yerləri işaxtaran və işsiz vətəndaşlara təklif olunacaq, onlara peşə bacarıqlarına, əmək vərdişlərinə uyğun iş yerlərinə göndərişlər veriləcək. Peşə və ixtisası olmayan, yaxud peşə bacarığına uyğun iş tapılmasında çətinlik yaranan şəxslər isə peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb olunacaqlar.

## Vyetnamın nüfuzlu VTC1 televiziya kanalında Azərbaycan haqqında veriliş yayımlanıb

Vyetnamın 50 milyondan çox tamaşaçısı olan VTC1 televiziya kanalında "Azərbaycan-sirlər yurdu" adlı film nümayiş etdirilib. AZƏRTAC xəbər verir ki, filmdə Azərbaycanın təbiəti, turizm imkanları, zəngin mədəniyyəti, o cümlədən mətbəxi, milli musiqisi və rəqsi, xalçaçılıq sənəti, çövkən oyunu, habelə qədim tarixi abidələrindən və zəngin memarlığından geniş bəhs olunub.




Qeyd olunub ki, Şərq ilə Qərbin kəsişdiyi məkanda yerləşən, zəngin mədəniyyətə malik Azərbaycan son illər dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib. Azərbaycanın əsrarəngiz təbiətə malik olması ilə yanaşı, dünyanın zəngin qədim tarix və memarlıq mərkəzlərindən biri olduğu bildirilib. Filmdə Bakının qədimliyi, habelə Azərbaycanın zəngin mədəniyyəti, "İçərişəhər" və Qobustan qoruqları haqqında ətraflı bəhs edilərək, hər iki kompleksin UNESCO-nun Dünya İrs Siyahısına daxil edildiyi bildirilib. Azərbaycandakı binaların tarixi barədə müfəssəl məlumat verilən filmdə qeyd olunub ki, XX əsrin əvvəllərində Bakıda Avropa memarlığı üslubu ilə bir çox bina tikilib, müasir dövrdə də həmin istiqamətin davam etdirildiyi diqqətə çatdırılıb.

## "ASAN xidmət"ə 27 milyonuncu müraciət qeydə alınıb

"ASAN xidmət"ə 27 milyonuncu müraciət qeydə alınıb. AZƏRTAC xəbər verir ki, bu müraciət 1 saylı Bakı "ASAN Kommunal" mərkəzinə Fərman Hacıyev tərəfindən edilib. O, "Azəriqaz" İstehsalat Birliyi, "Azərişıq" və "Azərsu" Açıq Səhmdar cəmiyyətləri tərəfindən həyata keçirilən xidmətlərdən yararlanıb. İyirmi yeddi milyonuncu müraciətin sahibi kimi Fərman Hacıyev təşəkkürnamə və simvolik hədiyyələrlə mükafatlandırılıb.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev bildirib ki, vətəndaşların məmnunluq səviyyəsinin öyrənilməsi ilə bağlı araşdırmalar aparılır. O, müraciətlərin çoxluğuna görə paytaxtda daha bir "ASAN Kommunal"ın açılmasının nəzərdə tutulduğunu qeyd edib: "Bakıda əhaliyə kommunal sahədə xidmətlər göstərən 2 "ASAN Kommunal" mərkəzi fəaliyyətdədir. Həmçinin 3 saylı "ASAN Kommunal" mərkəzi fəaliyyətə başlayacaq. Hazırda ölkəmizdə 15 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxt Bakıda, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli və Şəkidədir. Bu il daha 5 mərkəzin açılması planlaşdırılır."

# Anti-Azərbaycan dairələrin ölkəmizə qarşı qarayaxma kampaniyası iflasa məhkumdur



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevin yap.org.az-a müsahibəsi**

***- Ağalar müəllim, dinamik inkişaf yolunda əmin addımlarla irəliləyən Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətlərin əhəmiyyətini necə qiymətləndirirsiniz?***

- Azərbaycan mütərəqqi və nümunəvi inkişaf modeli yaradıb. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər nəticəsində Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib, ölkəmizin iqtisadi, siyasi, hərbi gücü artıb. Təsadüfi deyil ki, Azərbaycan çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmayıb. Son 15 ildə bütün sahələrdə qazanılmış möhtəşəm uğurlar müstəqil Azərbaycanın inkişaf yolunda inamla irəlilədiyini göstərir. Həyata keçirilən uğurlu iqtisadi siyasətin nəticəsi kimi, ötən illər ərzində ölkəmizin valyuta ehtiyatları artıb, müxtəlif sahələri əhatə edən layihələr uğurla reallaşdırılıb, islahatlar davam etdirilib. İqtisadiyyatın diversifikasiyasına nail olmaq üçün həyata keçirilən tədbirlər və əldə edilən nailiyyətlər yeni inkişaf perspektivlərinin meydana çıxmasını şərtləndirib. 2004-cü ildən etibarən bütün dünya üzrə ÜDM istehsalının artımında rekord göstərici 3,3 dəfə olmaqla məhz Azərbaycanda qeydə alınıb. Bəhs olunan dövrdə respublikamıza 250 milyard dollar sərmayə yönəldilib, ölkəmizin sənaye potensialı 2,6 dəfə, valyuta ehtiyatları 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Ölkəmizin inkişaf göstəriciləri müxtəlif beynəlxalq reytinq institutları tərəfindən də yüksək qiymətləndirilir. Dünyada maliyyə-iqtisadi böhranın olduğu şəraitdə Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafının təmin edilməsi, nəzərdə tutulan bütün proqramların, o cümlədən infrastruktur layihələrinin müvəffəqiyyətlə icra olunması təqdirəlayiq hal olaraq dəyərləndirilir.

Ötən müddət ərzində ölkəmizdə həmçinin uğurlu sosial siyasət həyata keçirilib, əhalinin sosial müdafiəsi gücləndirilib, insanların rifahı daha da yaxşılaşıb. Son 15 ildə ölkəmizdə əməkhaqları 7 dəfə, eləcə də minimum əməkhaqları 6,5 dəfə artırılıb. Prezident İlham Əliyevin "Minimum aylıq əməkhaqqının artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 8 fevral 2019-cu il tarixli Sərəncamı ilə minimum əməkhaqqının artırılması respublikamızda əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində növbəti mühüm addımdır. Sərəncama əsasən, Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il martın 1-dən 50 manat artırılaraq 130 manatdan 180 manata çatdırılır. Ümumiyyətlə, Prezident İlham Əliyevin fəaliyyətinin əsasında duran ali məqsəd - prioritet istiqamət vətəndaşların rifah halının yaxşılaşdırılması, iqtisadi inkişafın güclü sosial siyasətlə tamamlanmasıdır. Hələ 2003-cü ildə "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən Azərbaycan Prezidenti cənab İlham Əliyev verdiyi bütün vədlərə əməl edərək xalqın rifah halının yaxşılaşmasına, dövlətimizin qüdrətinin artmasına nail oldu, ölkəmizin qarşısında yeni inkişaf üfüqləri açıldı. İndi Azərbaycanın perspektivi parlaq - gələcəyi işıqlıdır, xalqın sabaha inamı güclüdür, ölkəmiz, qeyd etdiyimiz kimi, inkişaf yolunda gələcəyə doğru əmin addımlarla irəliləyir.

***- Müstəqil siyasət həyata keçirən və yüksək beynəlxalq nüfuza malik olan Azərbaycana qarşı müəyyən qərəzli dairələr, ermənipərəst qüvvələr tərəfindən qarayaxma kampaniyası aparılır. Bu qərəzli kampaniyanın arxasında duran səbəblər nədən ibarətdir?***

- Ölkəmizin dinamik inkişafını, müstəqil və prinsipial siyasət həyata keçirməsini, milli maraqlarını qorumasını həzm edə bilməyən müəyyən qərəzli mərkəzlər var. Bunlar ermənipərəst mövqedən çıxış edən anti-Azərbaycan dairələrdir. Həmin qüvvələr Azəebaycan əleyhinə çirkin təbliğat, yəni qarayaxma kampaniyası apararaq yanlış ictimai rəy formalaşdırmağa çalışırlar. Bu məqsədlə müxtəlif təşkilatların, transmilli media qurumlarının xidmətlərindən istifadə edərək Azərbaycana təzyiq göstərməyə cəhd edirlər. Bu mənada, son olaraq "Freedom House" adlı təşkilatın hazırladığı "Dünyada Azadlıq 2019" adlı qərəzli və qeyri-obyektiv "hesabat"da Azərbaycanla bağlı əsassız iddiaların, yalan və böhtan xarakterli məlumatların əks olunması ölkəmizə qarşı qarayaxma kampaniyasının tərkib hissəsidir. Bütün azadlıqların təmin edildiyi, demokratik təsisatların mövcud olduğu Azərbaycanın tənqid obyektinə çevrilməsi, işğalçı, anti-demokratik, insan hüquq və azadlıqlarının məhdudlaşdırıldığı Ermənistanın isə "qismən azad" ölkə kimi təqdim edilməsi həm paradoksaldır, həm də "hesabat"ın subyektiv məqamlara söykəndiyini, reallıqları əks etdirmədiyini göstərir. Əslində, "Freedom House" kimi konkret dairələrin sifarişlərini yerinə yetirən təşkilatlar faktiki olaraq ermənipərəst mövqedən çıxış edirlər, Azərbaycan kimi müstəqil siyasət həyata keçirən dövlətləri hədəfə alırlar.

Ölkəmizə qarşı qarayaxma kampaniyasının aparılmasının səbəblərindən biri də Azərbaycanın prinsipial xarici siyasət həyata keçirərək öz milli mənafeyini qətiyyətlə müdafiə etməsidir. Bilirsiniz ki, Azərbaycanın yaratdığı yeni reallıqlar Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə tam zəmin formalaşdırıb. Digər tərəfdən, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə uğurla çatdırılır, erməni lobbisinin "qara piar" kampaniyası iflasa uğradılır. Bununla yanaşı, Azərbaycanın iqtisadi, siyasi və hərbi qüdrəti artdığı halda, Ermənistanın regionda təcrid vəziyyəti dərinləşir, işğalçı ölkədə sosial-iqtisadi tənəzzül və ictimai-siyasi gərginlik davam edir. Bu ölkənin baş naziri Nikol Paşinyan ötən müddət ərzində sosial-iqtisadi və siyasi problemlərin həlli istiqamətində heç bir uğurlu addım ata bilməyib, iqtisadiyyatın inkişaf etdirilməsi ilə bağlı hər hansı plan irəli sürməyib. Təbii ki, bütün bu hallar Ermənistanın yeni siyasi xaosa sürükləndiyini göstərir. Elə bu ölkə mediası da ekspertlərə istinadən yazır ki, Ermənistanda qarşıdakı dövrdə siyasi, iqtisadi böhran dərinləşəcək. Çünki bu ölkə sosial-iqtisadi problemləri aradan qaldırmaq üçün kifayət qədər gücə malik deyil, dərin tənəzzül hakimiyyətlə xalq arasında ciddi qarşıdurmaya zəmin yaradıb. Əlbəttə, bütün bunlar anti-Azərbaycan, ermənipərəst qüvvələr tərəfindən ciddi narahatlıqla qarşılanır. Ona görə də həmin dairələr, qeyd etdiyimiz kimi, Azərbaycana qarşı qarayaxma kampaniyası aparırlar. Əlbəttə, anti-Azərbaycan dairələrin ölkəmizə qarşı qarayaxma kampaniyası iflasa məhkumdur, heç bir nəticə verməyəcək

***- Anti-Azərbaycan dairələrin sifarişlərini yerinə yetirən radikal müxalifət dağıdıcı çağırışlar səsləndirir, ictimai rəyi manipulyasiyaya məruz qoymağa çalışır. Bu barədə nə deyə bilərsiniz?***

- Azərbaycanın sabitlik adası adlandırılması təsadüfi xarakter daşımır. Ölkəmizdə möhkəm təməllərə söykənən ictimai-siyasi sabitlik mövcuddur, müxtəlif xalqların nümayəndələri dinc şəraitdə və mehriban şəkildə yaşayırlar. Azərbaycan dünyaya nümunəvi tolerantlıq modeli təqdim edib, cəmiyyətimizdə multikultural ənənələr və dəyərlər hökm sürür. Ölkəmizin nüfuzlu beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi etməsi də Azərbaycanın müsbət imici, ölkəmizdəki dinamik inkişaf və ictimai-siyasi sabitliklə əlaqədardır.

Əfsuslar olsun ki, anti-Azərbaycan dairələrin göstərişləri əsasında hərəkət edən "beşinci kolon" nümayəndələri, yəni ölkəmizdəki antimilli ünsürlər bu sabitliyin pozulmasının tərəfdarı kimi çıxış edirlər. Azərbaycan cəmiyyətinə yeni, faydalı və konstruktiv heç bir ideya təqdim edə bilməyən radikal müxalifət konkret olaraq Azərbaycan əleyhinə məkrli planların tərkib hissəsi kimi çıxış edir. Sosial şəbəkələr vasitəsilə Azərbaycan xalqına təhqirlər ünvanlayan, ictimai rəyi çaşdırmağa çalışan antimilli ünsürlər həmçinin zaman-zaman "mitinq" şouları vasitəsilə ictimai asayişi pozmağa çalışırlar.

Azərbaycan xalqı bu dağıdıcı ünsürlərin ermənipərəst qüvvələrlə sinxron hərəkət etdiyini və anti-Azərbaycan dairələrin sifarişlərini yerinə yetirdiyini yaxşı bilir. Ona görə də Azərbaycan ictimaiyyəti radikal müxalifətin milli maraqlara zidd mövqeyini və təxribatçı hərəkətlərini qınayır, ciddi etiraz və narazılıqla qarşılayır.

## Ukrayna saytı "Unudulmaz ağrı-Xocalıda günahsız qurbanların xatirəsi" sərlövhəli məqalə yayıb




Ukraynanın Gordon.ua saytında Azərbaycanın bu ölkədəki səfiri Azər Xudiyevin Xocalı soyqırımına dair "Unudulmaz ağrı-Xocalıda günahsız qurbanların xatirəsi" sərlövhəli məqalesi yayılıb. AZƏRTAC xəbər verir ki, müəllif məqalədə XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımının artıq dünya ölkələri tərəfindən tanındığını qeyd edərək, insanlığa qarşı törədilən vəhşiliyin beynəlxalq humanitar hüququn norma və prinsiplərinə zidd olduğunu vurğulayıb.

"Xocalıda əhaliyə qarşı törədilən kütləvi qətlin əsas ideoloqlarından olan Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində hər şeyi etiraf edib. O deyib: "Xocalıdan əvvəl azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki insanlara qarşı əl qaldıra bilməzlər. Amma biz bu stereotipi sındıra bildik", - deyə məqalədə bildirilir.

Müəllif daha sonra vurğulayır ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti hələ də davam edir. Ermənistan 25 ildən artıqdır ki, Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayır.

# Su təchizatı ilə bağlı Sərəncam uğurlara yol açır



***Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Prezident İlham Əliyevin Sərəncamı həm vətəndaşların içməli su probleminin həllinə, həm də kənd təsərrüfatının inkişafının təmin edilməsinə hesablanıb. Hazırda qeyri-neft sektorunun inkişafının təmin edilməsi, kənd təsərrüfatı məhsulları bolluğunun yaradılması, istehsalının, emalın həcminin artırılması, ümumilikdə, ölkə iqtisadiyyatının daha da gücləndirilməsi üçün həmin Sərəncamın əhəmiyyəti olduqca böyükdür.***

### Su ilə təchizatı kənd təsərrüfatının, ölkə iqtisadiyyatının inkişafına öz töhfələrini verəcək

Ölkə başçısının Sərəncamı ilə əhalisi 736 min nəfərə yaxın olan 41 şəhər və rayonun 254 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması böyük əhəmiyyətə malikdir və məhz bu səbəbdən də, diqqət mərkəzindədir. Yeni suvarılacaq torpaqların suvarma suyuna, habelə, əhalinin içməli suya tələbatının ödənilməsi üçün 2019-cu ildə 300 subartezian quyusunun layihələndirilməsi və qazılmasını nəzərdə tutan Sərəncam uğurlu iqtisadi və sosial siyasətin təsdiqidir.

Əvvəla, təsərrüfatları, əkin sahələrinin su ilə təchizatı, ilk növbədə, əkinçilik üçün ən arzuolunandır və bu tədbirlər kənd təsərrüfatının, ölkə iqtisadiyyatının inkişafına öz töhfələrini verəcəyinə zərrə qədər şübhə yoxdur. Çünki kənd təsərrüfatı bitkilərinin yetişdirilməsindən tutmuş, məhsuldarlığa qədər bütün dövr ərzində suya tələbat inkar edilə bilməz. Onu da nəzərə almaq lazımdır ki, su təchizatının lazımınca təmin edilməsi məhsuldarlığa öz müsbət təsirini də göstərməkdədir və bu da nəticə etibarı ilə kənd təsərrüfatının inkişafı, ərzaq məhsullarının bolluğu, qida təhlükəsizliyinin təmin edilməsi və digər istiqamətdə çox dəyərlidir.

Digər tərəfdən, əhalinin içməli suya olan tələbatının ödənilməsi öz aktuallığını hər zaman qoruyub-saxlayır və heç də az əhəmiyyətli məsələ deyil. Ölkə vətəndaşlarının yaşayış şəraitinin və rifah halının yaxşılaşdırılması dövlətimizin əsas prioritetlərindəndir. Vətəndaşlara qayğı, sosial siyasət dövlət başçısının daim diqqət mərkəzindədir. Həmişə olduğu kimi, hazırda bu strategiyanın, dövlətin bütün sahələrdə olduğu kimi, sosial siyasətinin də mərkəzində vətəndaş və insan amili dayanır.

### Su təsərrüfatı obyektləri içməli suya olan tələbatın ödənilməsi, məhsul istehsalının daha da artırılması üçün strateji cəhətdən əhəmiyyətlidir

Su təchizatının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.27-ci yarımbəndində göstərilmiş məbləğin 21 milyon manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılıb. Ayrılan vəsait bu vaxta qədər, məhz bu istiqamətdə görülən işlərin davamı və məntiqi ardıcıllığı üçün nəzərdə tutulub.

Xatırlamaq yerinə düşərdi ki, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ayrılmış vəsait hesabına 2013-2017-ci illərdə ölkənin 40 şəhər və rayonu üzrə əhalisi 1,4 milyon nəfərə yaxın olan 611 yaşayış məntəqəsində əkin sahələrinin, əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təmin olunması və əhalinin içməli suya tələbatının ödənilməsi üçün 1107 subartezian quyusu qazılıb və istifadəyə verilib. Həmin məqsədlə 2018-ci ildə isə ölkənin əhalisi 597 min nəfərə yaxın olan 38 şəhər və rayonunun 248 yaşayış məntəqəsində 300 subartezian quyusu qazılıb və suvarma su mənbəyi işğal zonasında qalmış Ağdam rayonunda hazırda əlavə olaraq 35 subartezian quyusunda qazma işləri aparılmaqdadır.

Respublikamızda son illər həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində, Azərbaycan iqtisadiyyatının sürətli inkişafı diqqətdən yayına bilməz. Digər sahələrdə olduğu kimi, qeyri-neft sektorunda da köklü dəyişikliklər göz qabağındadır. Məsələ burasındadır ki, regionlarda suvarılan torpaq sahələrinin genişləndirilməsi, mütərəqqi texnologiyalara əsaslanan aqroparkların, müasir heyvandarlıq komplekslərinin, iri fermer təsərrüfatlarının yaradılması bu köklü dəyişiklikləri, sürətli inkişafı şərtləndirən ən başlıca amillərdir. Sözsüz ki, bu amillər də nailiyyətlərin əldə olunmasında xüsusi rol oynayır və məhz buna görə də, hazırda da bu işlər uğurla, eyni zamanda, məqsədyönlü və düşünülmüş şəkildə davam etdirilir. Ən yaxın gələcəkdə isə, daha böyük uğurların əldə olunması, artıq günün reallığına çevrilib. Bir sözlə, su təchizatı ilə bağlı Sərəncam uğurlara yol açır.

***İnam HACIYEV***



## Deputatın seçicilərlə görüşü keçirilib



Dünən millət vəkili 56 saylı Xaçmaz kənd seçki dairəsindən Milli Məclisin üzvü İlham Əlisəftər oğlu Əliyevin seçicilərlə görüşü keçirilib.

Görüşdə YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev Azərbaycan Prezidenti İlham Əliyevin son 15 ildə yürütdüyü uğurlu sosial siyasətdən danışaraq, bildirib ki, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən siyasət sosial yönümlüdür və mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifahı dayanır. N.Ağayev bildirib ki, ölkə vətəndaşları dövlət başçısının sosial siyasətə mühüm əhəmiyyət verdiyini müşahidə edir və qiymətləndirirlər: "Bizim ən böyük nailiyyətimiz odur ki, ölkədə siyasi sabitlik var, Azərbaycan xalqı və Prezident birlik nümayiş etdirir. Xalq öz Prezidentini müdafiə edir. Dövlət başçısı da daim xalqın mənafeyindən çıxış edir".

Seçicilərlə görüşə gələn millət vəkili İlham Əlisəftər oğlu Əliyev Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətindən danışaraq, ölkəmizdə bərqərar olmuş sabitlik və stabilliyin nəticəsində, dünyanın bir sıra aparıcı şirkətləri ölkə iqtisadiyyatına sərmayə qoyulmasına şərait yaradılmasından, son illərdə sürətli iqtisadi inkişaf nəticəsində əldə olunan uğurların beynəlxalq aləmdə rəqabətlə qarşılandığını söyləyib və ölkə Prezidenti İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını vurğulayıb.

Milli Məclisin deputatı seçicilərini dinləyib, onların problemləri ilə maraqlanıb. Görüşdə vətəndaşlar tərəfindən qaldırılan bir sıra fərdi xarakterli problemlər müvafiq yerli icra hakimiyyəti strukturlarına müraciət etmək yolu ilə həll edilib. Tədbirdə rayon təhsil şöbəsinin müdiri Mədinə Nurməmmədova, şəhid atası Hacıağa Yəhyayev, seçicilərdən Yaqut Mansurova, Elman Bəkərov, Telman Təravət, Qoçadze Tahir, Ziyad Əliyev, tələbələrdən Səbinə Məmmədxanova, Mirvari Nəsirova və başqaları çıxış edərək, Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirərək, ölkədə həyata keçirilən uğurlu siyasəti dəstəklədiklərini söyləyiblər.

***R.KAMALQIZI***

# Sahib Ələkbərov: "Vergi Məcəlləsinə dəyişikliklərdə məqsəd sahibkarlığın dəstəklənməsidir"

Bu il yanvarın 1-dən qüvvəyə minən vergi qanunvericiliyinə dəyişikliklərin bir çoxu sahibkarlığın dəstəklənməsinə, vergi uçotunun şəffaflaşdırılmasına və "kölgə iqtisadiyyatı"nın aradan qaldırılmasına yönəldilib.

AZƏRTAC xəbər verir ki, bunu vergilər nazirinin müavini Sahib Ələkbərov deyib. Nazir müavini vurğulayıb ki, hazırda Azərbaycanda sahibkarlıq fəaliyyətinin dəstəklənməsi məqsədilə müxtəlif sahələrdə vergi güzəştləri tətbiq olunur: "1999-cu ildən fermerlər torpaq vergisi istisna olmaqla bütün vergilərdən azaddır. Bu, çox böyük güzəştdir və belə güzəştlərə dünyada nadir hallarda rast gəlinir. Həmin güzəştlərin müddəti bu ildən daha 5 il uzadılıb. Bəzən vergiödəyiciləri bunu hesa-



batlılığın pozulması kimi də başa düşürlər, bəyannamələri vaxtlı-vaxtında vermirlər, rəqəmləri düzgün göstərmirlər. Bu isə vergi uçotunun pozulmasına gətirib çıxarır. Nəticə etibarilə vergidən yayınma halları təkcə kənd təsərrüfatı sahəsini deyil, tədarükçü, ixracatçı və digərlərini də əhatə edir. Bunların qarşısını almaq üçün ilk növbədə, şəffaf və dürüst vergi uçotu qurulmalıdır. Biz bu istiqamətdə digər dövlət orqanları ilə birgə ciddi işlər aparırıq".

S.Ələkbərov əlavə edib ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliklər hər şeydən əvvəl sahibkarlar üçün daha rahat biznes və vergi mühitinin formalaşdırılmasına yönəldilib: "Belə ki, məcəlləyə dəyişikliklərdə əsas məqsəd sahibkarlığın dəstəklənməsi, eləcə də "kölgə iqtisadiyyatı"nın azaldılmasıdır. Eyni zamanda, vergi inzibatçılığının sadələşdirilməsi, təkmilləşdirilməsi və digər məsələlər də başlıca istiqamətlərdən biridir".

# “Paşinyanın proqramı erməni xalqının arzularının sonudur”

## Erməni ictimaiyyəti Paşinyanın hökumət proqramını qəbul etmir



**Nikol Paşinyan hakimiyyətinin növbəti 5 il üçün qəbul etdiyi fəaliyyət proqramı Ermənistanın müxtəlif ictimai-siyasi dairələri və KİV-ləri tərəfindən sərt şəkildə tənqid hədəfinə tuş gəlib. İctimaiyyət qarşıya qoyulmuş vəzifələrin öhdəsindən gəlinməyəcəyini bəyan edir, xüsusilə, Paşinyanın “siyasi inqilabın” başa çataraq, “iqtisadi inqilaba” keçid alması bəyanatı üzərində kəskin düşüncələrini bölüşür.**

Sözügedən məsələ ilə bağlı “armenianreport” saytında gedən analitik yazı da bu müstəvidən çıxış etməkdədir. Belə ki, adıçəkilən saytda “Paşinyanın proqramı erməni xalqının arzularının sonudur” başlıqlı yazıda bildirilir ki, baş nazir “siyasi inqilabı” başa çatdırmamış, indi də “iqtisadi inqilabdan” dəm vurur.

O cümlədən, baş nazirin müavini Mqer Qriqoryan proqramla bağlı bildirib ki, yaxın 5 il üçün tərtib edilmiş sənəd gün yarım ərzində hazırlanıb və iqtisadiyyatın bütün sahələrini əhatə edir və s.

### “Proqramda konkret hədəflər yerinə, “iqtisadi inqilabın konsepsiyası” ətrafında söz yığını və patetika nəzərə çarpır”

Sözügedən şərhdə Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanovun fikirlərinə yer ayrılıb və onun hökumət proqramını populizm və demaqogiya adlandırdığı xatırlanıb. “Axı o, haqlıdır - çünki proqramda konkret hədəflər yerinə, “iqtisadi inqilabın konsepsiyası” ətrafında söz yığını və patetika nəzərə çarpır. Yəni Paşinyan “siyasi inqilabı” başa çatdırmamış, indi də “iqtisadi inqilabdan” danışır”, deyə yazıda bildirilir.

SİTAT: “Müxalifətdə olarkən, Paşinyan hakimiyyəti Rusiya ilə münasibətlərinə görə amansız şəkildə tənqid edirdi. O, dəfələrlə Ermənistanın Avrasiya İqtisadi İttifaqından (AİI) və KTMT-dən çıxması vacibliyindən danışaraq, bəyan edirdi ki, Yerevan üçün xarici siyasətdə Aİ və NATO prioritet olmalıdır. Bəs biz indi nə görürük? Proqramda Rusiya ilə strateji münasibətlərdə AİI və KTMT ölkənin mühüm prioriteti kimi təqdim olunur. Yəni Paşinyan burada da Kremlin caynaqlarından qurtulmasını istəyən erməni xalqının arzularına son qoydu”.

### “Paşinyan Rusiyadan asılı qalmaq məqsədini güdür”

“Bunun yerinə, o, Ermənistanın Rusiyadan və postsovet məkanındakı Putin layihələrindən daha asılı vəziyyətə düşməsi məqsədini güdür”, deyə qeyd edilən yazıda bildirilir ki, bundan əlavə, proqramda Ermənistan hökumətinin Rusiya ilə hərbi əməkdaşlığının ölkənin əsas təhlükəsizlik təminatı kimi göstərildiyi də xatırladılır. “Həmin Rusiya ilə ki, Azərbaycanı ən müasir silahlarla təchiz edir, Türkiyə ilə yaxın münasibətlər saxlayır”, deyə bildirilir.

Beləliklə, analitik yazıda, ona da toxunulur ki, heç kim bir andaca Rusiya ilə münasibətlərə son qoyulmasını istəmir, sadəcə, ən azı, onunla distansiya saxlamaq üçün prosesə başlanılmalı idi: “Bundan əlavə, ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton, Yerevana etdiyi ötənilki səfəri zamanı açıq şəkildə bəyan etmişdi ki, Vaşinqton Ermənistanla daha sıx əməkdaşlığa hazırdır, o cümlədən, hərbi sahədə. Əgər yeni hakimiyyət Rusiya ilə birtərəfli bağlantıdan imtina edərsə. Təəssüf ki, müxalifətdə olarkən, özünü “cəsur” göstərən Paşinyan, hakimiyyətdə qərarsız kimi görünməyə başlayıb”.

### “Nə səbr qalıb, nə də ki, vaxt”

“Armenianreport” sonda qeyd edir ki, əlbəttə, müxalifətçi olmaq asandır: “Özün üçün hakimiyyəti tənqid elə, ideya fontanları burax və təşəbbüslər irəli sür. Çünki üzərində heç bir məsuliyyət yoxdur. Lakin dövlətin sükanı arxasına keçirsənsə, heç olmasa, hissə-hissə özünün seçkiqabağı vədlərini həyata keçirməlisən. Bəlkə də biz yenicə hakimiyyətə gəlmiş insanların üzərlərinə çox gedirik və hər şey zaman-zaman öz qaydasına düşəcək? Buna inanmaq istərdik. Amma daha bir neçə il gözləməyə də nə səbr qalıb, nə də ki, vaxt”.

Bütün bunlardan isə, belə nəticəyə gəlmək olar ki, erməni KİV-lərində son zamanlar daha çox bənzər yazı və məqalələrə, şərhlərə, müsahibələrə, rəy və açıqlamalara rast gəlmək mümkündür. Belə nəticələr isə, onu göstərir ki, erməni ictimaiyyəti Nikol Paşinyan hakimiyyətinin boş vədlərindən və “inqilab” eyforiyasından bezib. Belə bezmələr isə, Ermənistanın növbəti inqilaba hamilə qalmasını da reallaşdıra bilər. Hər halda, bu ölkədəki böhranlar və çıxış yollarının tapılmaması bu cür qənaətə gəlməyə kifayət qədər rəvac verir.

**Rövşən NURƏDDİNOĞLU**

# Ermənistan naşı rəhbərlərinin qurbanına çevrilir

## Eldəniz Səlimov: “Paşinyan hakimiyyətə gəldiyi gündən çaşqınlıq içindədir”



Müsahibimiz millət vəkili Eldəniz Səlimovdur

***- Eldəniz müəllim, Ermənistanın baş naziri danışıqlar prosesində işğal altındakı ərazilərin boşaldılması məsələsinin müzakirə olunmadığını bildirib. Bu sərsəmləmə nədən irəli gəlir?***

- Nikol Paşinyanın bu cür münasibətini və mövqeyini hər an gözləmək olardı. Çünki danışıqlar aparılarkən, özünü itirir. Bəlkə də heç bilmir ki, orada söhbət nədən gedir. O, anlamır ki, danışıqları necə aparmaq lazımdır və nə üçün aparılır? Küçədən hakimiyyətə gələn üçün bu hal, təsadüfü deyil. Paşinyanın siyasi gücü yoxdur, ona görə də, Paşinyana siyasətçi desək, səhv etmiş olarıq. Hətta özü də bilmir ki, hakimiyyətə nə üçün gəlib. Kimi görür o tərəfə əyilir, çox vaxt Qərbə meyil etmək istəyir, bununla yanaşı, Rusiyadan da əl çəkə bilmir. Paşinyan hakimiyyətə gəldiyi gündən çaşqınlıq içində olduğundan, özünə yol seçə bilmir.

***- Ermənistan rəhbərliyinin tutduğu anormal mövqe nəticə etibarı ilə danışıqların pozulmasına gətirib çıxarmayacaq ki?***

- Paşinyan Dağlıq Qarabağla bağlı sərsəm bəyanatlar verməklə vəziyyətini daxildə möhkəmləndirmək istəyir. Özündən əvvəlki prezidentlərin səhvlərini təkrarlayır, bu da onun erməni xislətindən irəli gələn haldır. O müstəqil siyasət yeridə bilmir və xarici ölkələrdən asılı olduğundan, onların sifarişlərini yerinə yetirib, öz missiyasını yerinə yetirmiş hesab edir. Nəticədə, Ermənistan idarəolunmaz bir ölkəyə çevrildiyindən, özü də pis vəziyyətə düşüb.

***- Ümumiyyətlə, danışıqlar xatirinə danışıqlar aparmağa lüzum varmı?***

- Hələ ki, Paşinyan Koçaryan və Sarkisyanın səhvlərini təkrarlamaqla, danışıqlar xatirinə danışıqlara qatılır. Son vaxtlar beynəlxalq təşkilatlar Ermənistanı danışıqlar masasına oturtmağa səy göstərirlər. Ədalətə söykənən missiyamızın nəticəsi özünü göstərəcəkdir.

**GÜLYANƏ**

# Ermənistanda növbəti etiraz aksiyası başlayıb



Ermənistanda Alaverdi Misəritmə Zavodunun fəhlələri etiraz aksiyası keçirirlər. Onlar zavodun yaxınlığından keçən Gürcüstan-Ermənistan dəmir yolunu bağlayıblar. Aksiya iştirakçıları baş nazir Nikol Paşinyanla görüşmək tələbi irəli sürüblər. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, fəhlələrin etiraz aksiyasının səbəbi zavodun ekologiya idarəsi tərəfindən 380 milyon dram (700 min dollar) məbləğində cərimə olunması və bunun nəticəsində borclu olduğu bankın mülkiyyətinə verilməsidir. Nəticədə əmək müqavilələrinə xitam verilib və ilin əvvəlindən yüzlərlə fəhlə işsiz qalıb.

Aksiya iştirakçılarının Lori vilayətinin qubernatoru ilə danışıqları da nəticəsi başa çatıb. Aksiyada iştirak edən 200-dən çox fəhlə problemləri həll olunmayana qədər dəmir yolunu açmayacaqlarını elan ediblər. Baş nazir Paşinyan isə bildirib ki, hökumət zavodun banka verilməsi haqqında məhkəmənin qərarına müdaxilə edə bilməz.

## Köçəryana qarşı daha bir ittiham irəli sürülüb



Ermənistan Xüsusi İstintaq Xidməti həbsdə olan sabiq prezident Robert Köçəryana qarşı daha bir ittiham irəli sürüb. Bu barədə “RİA Novosti” məlumat yayıb. Sabiq prezidentin vəkillərinin bildirdiyinə görə, sabiq dövlət başçısı külli miqdarda rüşvət almaqda ittiham olunur. Xatırladaq ki, R.Köçəryan 2008-ci ildə ölkədə Konstitusiya quruluşunu zorla dəyişdirməkdə ittiham olunaraq ötən il həbs olunub.

# Azərbaycanda və Şərqdə ilk televiziya

## 14 fevral 1956-cı ildə televiziya fəaliyyətə başlayıb

***Bu gün dünya yenilənib, inkişaf dövrünü yaşayır. Sürət əsri olan zamanda insan təfəkkürü yeniliyə can atır, dünyanı necə varsa, elə də görmək istəyir. Elm və texnologiyanın inkişafı bu meyardan tələbatların ödənilməsində müstəsnadır. Etiraf edək ki, inkişaf etmiş dünyamızda nə qədər yeniliklər olmuş olsa da, televiziyanın yeri və rolu əvəzedilməzdir. Bu gün Azərbaycanda, Şərqdə ilk dəfə yaradılan və milyonların seyrçisi olduğu televiziya günüdür. Azərbaycan Televiziyası radiodan düz 30 il sonra - 1956-cı il fevralın 14-də fəaliyyətə başlayıb. Bu, Stalin rejimindən qurtuluş tapan Sovet cəmiyyətində aşkarlığın rüşeymlərinin yenicə yaranan dövrünə təsadüf edirdi.***

Bakı Televiziya Mərkəzi üçün binanın inşasına 1954-cü ildə başlanıldı və azərbaycanlı inşaatçı və mütəxəssislərin moskvalı, leninqradlı həmkarları ilə birgə ucaltdıqları və müvafiq avadanlıqla təchiz etdikləri telemərkəzin binası 1955-ci ilin sonunda təhvil verildi. 1956-cı ilin fevralına qədər isə, Bakı Studiyasının ara-sıra sınaq verilişləri yayımlanırdı. İlk veriliş günü ekranda sonradan Azərbaycanın tanınmış sənətkarına çevriləcək, o dövrdə isə, gənc aktrisa olan Nəcibə Məlikova görünüb. Çıxışını "Göstərir Bakı!" kəlməsi ilə açan Nəcibə xanım tamaşaçıları televiziyanın fəaliyyətə başlaması münasibətilə təbrik edib. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi nümayiş etdirilib. Bu televiziyanın yaddaşına və tarixinə yazılan ilk cümlələrə çevrildi.

İlk illərdə Bakı Studiyası, əvvəlcə həftədə iki, sonra üç dəfə 2 saatlıq proqramla efirə çıxırdı. Televiziya sahəsində mütəxəssislər olmadığından, burada işləməyə radio, qəzet və teatr əməkdaşları dəvət edilirdilər. Televiziyada proqramlaşdırma, şəbəkə və model haqqında anlayış yox idi. Buna görə də, yeni kütləvi informasiya vasitəsi təsviri retranslyator kimi fəaliyyət göstərirdi. Televiziya içşiləri hər gün toplaşaraq, tamaşaçılara nəyi göstərməyi qərara alırdılar. Seçim isə zəngin deyildi: klassik və estrada musiqisindən ibarət konsertlər, bədii filmlər, teatr tamaşaları, ictimai-siyasi mövzuda müsahibələr, əmək qabaqcıllarının çıxışları nümayiş etdirilir, diktor qəzetlərdən 15 dəqiqəlik qısa xəbərlər oxuyurdu.

1957-ci ildən Azərbaycan Televiziyası efirə həftədə 5 dəfə çıxmağa başladı və verilişlərin gündəlik həcmi 2 saat 20 dəqiqəyə çatdırıldı. 70-ci illərdən etibarən isə, Azərbaycan Televiziyasının gündəlik veriliş və proqramlarının yayım həcmi 10 saata, 80-ci illərdə 18 saata çatdırıldı. 1970-ci ildə televiziya Dövlət Televiziya və Radio Verilişləri Komitəsi statusu aldı. 2005-ci ildən isə, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə şirkət "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə çevrildi. Elə həmin ildən televiziya 24 saatlıq fasiləsiz yayıma keçdi.

### TELEVİZİYANIN TARİXİNDƏ YAŞAYAN İLK DİKTORLAR

1956-cı ilin mayında ekranda ilk diktorlar göründülər. Onların arasında Tamara Gözəlova, Nailə Mehdibəyova, Sevda Qənizadə, Sara Manafova, Rəna Nəsirova, Rəxşan Aslanova, Sima Xasıyeva, Nizami Məmmədov var idi. Sonradan televiziyada istedadlı diktorlar nəsli meydana gəldi. Bu sırada Roza Tağıyeva, Rafiq Hüseynov, Ofelya Sənani, Şərqiyyə Hüseynova, Sabir Ələsgərov, Hicran Hüseynov, Həqiqət Əsgərova, Natəvan Hacıyeva, Tamilla Ələkbərova, Davud Əhmədov, Gülşən Əkbərova, Nərgiz Cəlilova, Ülkər Quliyeva, Aygül Qaradağlı, Dilarə Səlimova, Rafiq Həşimov və başqaları yer aldı. Zaman



ötdükcə, inkişaf və püxtələşmə özünü büruzə verdi. Televiziyanın artan imkanları, yeni radiorele xəttinin istismara verilməsi və başqa amillər Azərbaycanın əksər rayon mərkəzlərində və yaşayış yerlərində televiziyaya baxmaq imkanları yarandı. Gəncədə, Göyçayda və Şuşada güclü televiziya stansiyalarının işə düşməsi Bakıdan yayılan verilişləri Xanlar, Goranboy, Yevlax, Mingəçevir, Ağcabədi və Dağlıq Qarabağda maneəsiz qəbul etməyə imkan verdi. Qısa bir zamanda, Bakı-Moskva radiorele xəttinin istifadəyə verilməsi ilə Azərbaycan əhalisi Moskvadakı Mərkəzi Televiziyanın proqramlarına, "Intervideniye" və "Evrovidenie"nin verilişlərinə baxmaq imkanı əldə etdi.

### AZƏRBAYCAN TELEVİZİYASI ÜÇÜN SINAQ DÖVRÜ

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin başlanması Azərbaycan Televiziyası üçün əsl sınağa çevrildi. Kommunist Partiyasının nəzarəti altında fəaliyyət göstərdiyindən və SSRİ daxilində başlayan münaqişəyə hazır olmadığından, Azərbaycan Televiziyası informasiya siyasətini düzgün qura bilmədi. Separatçıların Xankəndidə keçirdiyi fasiləsiz mitinqlər barədə qısa xəbəri Azərbaycan Televiziyası yalnız 10 gündən sonra - "yuxarı"nın icazəsi ilə "Qarabağda yaranmış durum" adı altında efirə verdi. Sov.İKP Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun və Mərkəzi Komitə üzvlərinin Azərbaycana qarşı tutduqları ədalətsiz mövqeyə qarşı Bakıda başlayan kütləvi nümayişlər zamanı da meydandan birbaşa yayıma TV iki gün gec başladı. Bu isə, AzTV rəhbərliyinin Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirovun iradəsinin əleyhinə çıxması nəticəsində mümkün oldu. Azərbaycan Televiziyasının əməkdaşları da xalqla birlikdə Qorbaçovun anti-Azərbaycan siyasətinə və Azərbaycanın o zamankı rəhbərliyinin milli maraqlardan uzaq olan davranışına və addımlarına qarşı çıxaraq, Azərbaycan Konstitusiyasına və beynəlxalq hüquq normalarına əməl edilməsini, erməni separatçılarının qanunsuz hərəkətlərinin qarşısının alınmasını tələb edirdi. Azərbaycan Televiziyası ilə çıxış edən siyasi icmalçılar Kremlin Azərbaycana qarşı apardığı siyasətin mahiyyətini, respublikamızda yaranmış idarəolunmaz ictimai-siyasi vəziyyəti, xalqın haqlı tələbləri irəli sürdüyünü cəsarətlə dilə gətirirdilər. Moskvadan gələn emissarların Azərbaycan Televiziyası vasitəsilə Kremlin Bakıya qoşun yeritməyəcəyi və fövqəladə vəziyyət elan etməyəcəyi barədə vədlərinə baxmayaraq, 1990-cı il yanvarın 19-da saat 19:26-da Azərbaycan Televiziyasının enerji bloku partladıldı.

Azərbaycan Televiziyasının yayımını yalnız yanvarın 28-də bərpa etmək mümkün oldu. Qara kostyumda və qalstuksuz efirə çıxan diktor Rafiq Hüseynov 131 dinc oğlu və qızı Sovet ordusu tərəfindən qətlə yetirilən xalqımıza başsağlığı verdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini elan etdi. Totalitar Sovet rejimindən qurtulub yenidən müstəqillik qazanan Azərbaycan elə dünyaya demokratik inkişaf yolu tutduğunu bəyan etdi. Ağrılı-acılı keçid dövrünü yaşayan ölkəmiz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə stabilliyə nail oldu və demokratik cəmiyyətin əsas elementlərini yaratmağa başladı.

1993-cü il iyunun 4-də Gəncədə cərəyan edən hadisələr zamanı əhalinin düzgün məlumatlandırılması baxımından televiziya çox mühüm rol oynadı. Məlum hadisələr zamanı Bakıya dəvət olunmuş Ümummilli Lider Heydər Əliyev müsahibələrinin, bəyanatlarının, Milli Məclisin iclaslarının canlı yayımına üstünlük verdi. "Talış-Muğan Respublikası" separatizmi, 1994-ci il oktyabr, 1995-ci il mart hadisələri zamanı da Ulu Öndər Heydər Əliyev Azərbaycan Televiziyası vasitəsilə ictimaiyyətlə birbaşa ünsiyyət qurdu. Bu böyük siyasətçi dövlətimizə qarşı məkrli plan hazırlayanların bütün əməllərinin necə məharətlə alt-üst edildiyini bütün ictimaiyyətə nümayiş etdirirdi. 1994-cü il oktyabrın 4-də Heydər Əliyevin televiziya ilə xalqa müraciət etməsi nəticəsində yüzlərlə insan, o cümlədən, müxalifətçilər də Prezident Aparatının qarşısına yığışaraq, ölkə Prezidentinin siyasi kursunu müdafiə etdiklərini, birmənalı şəkildə bəyan etdilər.

Xronoloji ardıcıllığa nəzər saldıqca, görürük ki, Azərbaycan Televiziyası ölkə telemekanının formalaşmasında böyük rol oynayıb. Sonrakı illərdə Azərbaycan Televiziya və Radiosunda yetişən peşəkar televiziyaçılar "Lider", "Speys", "İTV" və digər kanalların yaradılması prosesində yaxından iştirak etmişlər. Bu gün dünya ölkələrində Azərbaycan Televiziyasının proqramları yayımlanır. Tarixi yol Azərbaycan Televiziyasının inkişafına böyük yollar açdı.

### "MƏDƏNİYYƏT" KANALININ AÇILMASI DÖVLƏTİMİZİN MƏDƏNİYYƏTƏ, İNCƏSƏNƏTƏ GÖSTƏRDİYİ BÖYÜK DİQQƏT VƏ QAYĞIDIR

Bu gün televiziyanın bütün proqramları milli-mənəvi dəyərləri, milli adət və ənənələri, mədəniyyət və incəsənətin bütün rəngarəngliyini özündə əks etdirir. İctimai məzmunlu proqramlar hazırlayarkən, cəmiyyətdəki siyasi əqidələri, dini baxışları, ictimai fikir və rəyin müxtəlif cərəyanlarını, habelə, ölkə vətəndaşlarının hüquq bərabərliyini nəzərə alır. Televiziya proqramlarında yer alan xalqımıza doğru-dürüst xəbərləri çatdıran proqramları xüsusi önəm təşkil edir. Plüralizm və dözümlülük prinsipinə uyğun olaraq, cəmiyyətdəki müxtəlif nəzər nöqtələri, problemlərə yanaşma, şərhlər və analitik təhlillər alternativ əsaslarla və müzakirə formasında aparılır. Tarix, mədəniyyət və incəsənətin ayrı-ayrı sahələrinin inkişafına xidmət edən verilişlər və vətənpərvərlik mövzusunda proqramlar hazırlanır.

Dövlət başçısı İlham Əliyev hakimiyyətə gəldiyi vaxtdan, digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əsaslı islahatları sürətləndirməyə başladı. Kino, teatr, musiqi, tətbiqi sənət, tarixi abidələrin qorunması və bərpası ilə bağlı qəbul olunan dövlət proqramları və Prezidentin mədəniyyət sahələrinin inkişafı ilə bağlı sərəncamları, bir daha təsdiq edir ki, ölkəmizdə mədəniyyətə, mənəvi dəyərlərin qorunub-saxlanmasına, həqiqətən, böyük qayğı var. "Mədəniyyət" kanalının açılması da dövlətimizin, Azərbaycan Prezidenti İlham Əliyevin mədəniyyətə, incəsənətə göstərdiyi böyük diqqət və qayğının nəticəsidir. Bundan əlavə, Azərbaycan Televiziyasının maddi-texniki bazasının dünya standartlarına tam cavab verməsi, proqramların bütün dünyaya yayılmaq imkanı, uzun illər yığılıb-qorunan mədəniyyət nümunələrinə aid dəyərli lent yazılarının yalnız AzTV-də olmağı "Mədəniyyət" kanalının, məhz Azərbaycan Televiziyasının nəzdində yaranmasını reallaşdırdı.

### "İDMAN AZƏRBAYCAN" AZƏRBAYCAN İDMANININ GÜZGÜSÜNƏ ÇEVRİLİB

2009-cu il fevralın 1-də "İdman Azərbaycan" kanalı da rəsmən fəaliyyətə başladı. Ölkə Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə yaradılan kanal televiziya sahəsində böyük təcrübəyə malik Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin nəzdində yaradıldı. Gənc və enerjili bir kollektivlə fəaliyyətə başlayan "İdman Azərbaycan", qısa bir zamanda, Azərbaycan idmanının güzgüsünə çevrildi. Bu müddət ərzində həm Avropanın aparıcı ölkələrinin futbol çempionatlarının, eyni zamanda, müxtəlif idman növləri üzrə beynəlxalq yarışların efirdə yayımlanması üçün müqavilələr imzalandı. Təsadüfi deyil ki, bu gün adi idman azarkeşi "İdman Azərbaycan"da müxtəlif idman növləri üzrə hər zövqə uyğun yarışı izləyə bilər.

Efir məkanında sözünü deyən, öz fərqli dəsti-xətti ilə seçilən, bir çox uğurlara imza atan Azərbaycan Televiziyasının kollektivini təbrik edir, daha əlçatmaz, uca zirvələr fəth etməsini arzulayırıq.

**Nəzakət ƏLƏDDİNQIZI**

# "Qarabağ" bağırıb, siyasi məqsədlərini güdənlər

## Və ya İsgəndər Həmidovla Rəsul Quliyevin əlaltısı - Ağasəf Şakiroğlu bu qurumdan niyə istefa verdilər?



***Məlum olduğu kimi, "Qarabağ" Komitəsinin ("QK") 16 fevralda keçirməyi planlaşdırdığı mitinqinə icazə verilmədi. Belə ki, Bakı Şəhər İcra Hakimiyyəti komitənin müraciətinə cavabında aksiyanı "məqsədəuyğun hesab edilmədiyini" bildirib.***

Maraqlı məqam budur ki, adıçəkilən komitəyə üzv olan AMDP sədri İsgəndər Həmidov, eləcə də, eks-spiker Rəsul Quliyevin əlaltısı, "GAP" sədri Ağasəf Şakiroğlu həmin qurumdan istefa verdiklərini bəyan ediblər. Onlar, İ.Həmidov tərəfindən yaradılan və nədənsə, radikal müxalifətin digər təşkilatları tərəfindən qəbul edilməyən "Azərbaycan Xalq Hərəkatı" daxilində özlərinə məxsus "Qarabağ" Komitəsi tipli siyasi qurumun yaradılmasını daha məqsədəuyğun sayıblar. Ancaq "Qarabağ" Komitəsində təmsil edilənlər, İ.Həmidovla A.Şakiroğluya qurumu parçalamamağı tövsiyə edərək, öz etirazlarını bildiriblər. Qarşı tərəf isə, öz növbəsində, icazəsiz mitinq keçirməyi təklif edib və komitə rəhbərliyi tərəfindən rədd cavabı aldıqdan sonra, istefa verdiklərini bəyan ediblər. Ümumilikdə, götürdükdə isə, fakt budur ki, məhz bu faktın özü bir sıra radikal müxalifət üzvlərinin "Qarabağ" Komitəsinin mitinqini öz maraqları kontekstində keçirməyi planlaşdırıblar. Ölkədəki sabitliyi "Qarabağa azadlıq" şüarı ilə deyil, bu şüar altında hazırladıqları anti-dövlətçilik şüarları ilə əvəzləməyə hazırlaşırmışlar. Onu da nəzərə alsaq ki, İ.Həmidov həm də AXCP sədri Əli Kərimlinin dirijor çubuğu ilə idarə edilən antimilli xarakterli "Milli Şura"nın üzvüdür, bu zaman onların Qarabağ adından kirli məqsədlər güddüklərini bəri başdan proqnozlaşdırmaq olar.

**Hər kəs yaxşı bilir ki, Azərbaycanın inkişafını, sabitliyini istəməyən daxili və xarici qüvvələr əlbir olaraq, inqilabi islahatlara, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün atılan addımlara, uğurlara kölgə salmağa cəhdlər göstərirlər**

O da əbəs deyil ki, mitinqin icazə verilməməsinə səbəb kimi, məhz bu amillər göstərilib. Belə ki, son dövrlərdə ayrı-ayrı adlar altında keçirilən aksiyalar zamanı məqsəd və diqqətin heç də bu və ya digər məsələyə yönəldilməsi deyil, ölkədə vətəndaşlar arasında qarşıdurma yaratmağa cəhd olduğu ortaya çıxıb. Bu gün, hər kəs yaxşı bilir ki, Azərbaycanın inkişafını, sabitliyini istəməyən daxili və xarici qüvvələr əlbir olaraq, dövlət rəhbərliyi tərəfindən aparılan inqilabi islahatlara, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün atılan addımlara, ümumiyyətlə, uğurlara kölgə salmağa cəhdlər göstərirlər. Bu cəhdlər puça çıxdıqdan sonra, onlar digər manipulyasiyalarla, misal üçün, "Qarabağ" Komitəsi pərdəsi altında öz xəyanətkar siyasətlərini reallaşdırmağa çalışırlar.

**Fakt budur ki, bu qurum altında kamuflyaj olunmuş AMDP və GAP kimi təşkilat rəhbərləri, "Milli Şura", AXCP və Müsavat üzvləri qeyd olunan planlarını hər an cızmağa hazırdırlar**

Başqa tərəfdən, radikal müxalifətin satqın "liderləri" də yaxşı bilirlər və dərk edirlər ki, dövlət rəhbərliyi Azərbaycanın Dağlıq Qarabağ problemi müstəvisində qətiyyətli addımlar atır, işğalçı tərəfi bütün mənalarda dalana sıxışdırır. Əlbəttə ki, belə bir hal xaricdə fəaliyyət göstərən erməni lobbisini də narahat edir. Erməni lobbisi beləlləri vasitəsi ilə öz məqsədlərinə çatmaq üçün maliyyələr ayırırlar. Həmin maliyyələrin bir hissəsi isə radikal müxalifətin cibinə axır. Ona görə də, bəri başdan məlum idi ki, "Qarabağ" Komitəsi dağıdıcı düşərgə təmsilçiləri üçün, sadəcə, bir vasitədir. O vasitədən isə istifadə edə bilmədilər - dövlət onların növbəti çirkin məqsədlərinin qarşısını mitinqə icazə verməməklə aldı. Göründüyü kimi, əgər belə olmasaydı, nə İ.Həmidov, nə də A.Şakiroğlu "Qarabağ" Komitəsindən istefa verməzdilər. Ancaq bunu etdilər və həttə səbəbini də açıqladılar ki, icazəsiz mitinq keçirmək istəyirlər və s.

Düzdür, biz deyə bilmərik ki, "Qarabağ" Komitəsi adlı quruma daxil olanların hər biri radikal təmayüllü insanlardırlar və onların hamısı ölkədə süni və siyasi gərginlik yaratmağa, sabitliyi pozmağa çalışırlar. Amma fakt budur ki, bu qurum altında kamuflyaj olunmuş AMDP və GAP kimi təşkilat rəhbərləri, "Milli Şura", AXCP və Müsavat üzvləri qeyd olunan planlarını hər an cızmağa hazırdırlar.

Habelə, unutmaq olmaz ki, səs-küy yaradıb, "Qarabağ" bağıranların əksəriyyəti AXC-Müsavat iqtidarı dönəmində rəhbərliklərdə təmsil olunmuş, torpaqlarımızın işğal olunmasında isə, bilavasitə baiskarlardırlar. Əslində, onların, ümumiyyətlə, xalq arasına çıxıb, hər hansı fikir söyləmələri də doğru deyil. Belə olan halda, onların sözügedən cəhdləri boş və uğursuzdur.

**Rövşən RƏSULOV**

---

# Sumqayıtdan Bakıya gələn sürət qatarı 42 yaşlı qadını vurub öldürdü



Sumqayıtdan Bakıya gələn sürət qatarı qadını vurub öldürüb. Abşeron Rayon Prokurorluğundan SİA-ya verilən məlumata görə, hadisə rayonun Xırdalan şəhəri ərazisində, səhər saat 07 radələrində baş verib. Xırdalan şəhəri ərazisində Sumqayıtdan Bakıya gələn sürət qatarının bir nəfəri vurub öldürməsi barədə məlumat daxil olan kimi polis və prokurorluq orqanları əməkdaşları dərhal hadisə yerinə baxış keçirib.

Məlum olub ki, Abşeron rayonu Xırdalan şəhər sakini, 1978-ci il təvəllüdlü Abbasova Roza Maşallah qızı Xırdalan şəhəri, "Çexkalon" adlanan ərazidə qatar relsinin üzəri ilə işə gedərkən Sumqayıtdan Bakıya gələn "Ştabler" markalı sürət qatarı vurması nəticəsində ölüb. Faktla bağlı Abşeron Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 262.2-ci (Dəmir yolu, su və ya hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olma) maddəsilə cinayət işi başlanıb.

# Gürcüstanın bizə 7,8 milyon dollar borcu var



Yanvarın 31-nə Gürcüstanın ümumi xarici dövlət borcu 5,4 milyard ABŞ dolları olub. Bunun da 5,2 milyard dolları hökumətin payına düşür. SİA xəbər verir ki, bu barədə Gürcüstanın Maliyyə Nazirliyinin aylıq hesabatında bildirilir. Məlumata görə, Gürcüstanın Azərbaycana borcu 7,8 milyon dollar təşkil edir. Gürcüstanın ən çox borcu olan xarici ölkə Almaniyadır (324,8 milyon dollar). İkinci sırada 253,3 milyon dollarla Fransa, üçüncü yerdə 215,3 milyon dollarla Yaponiyadır. Qonşu ölkənin Türkiyəyə 15 milyon dollar, Rusiyaya isə 61,3 milyon dollar borcu var.

# Ermənistan ABŞ-ı qəzəbləndirdi



Suriyada humanitar missiya yerinə yetirəcəyini və bu ölkədə hərbi əməliyyatlarda da iştirak edəcəyi ehtimalının olduğunu bəyan edən işğalçı Ermənistan bu dəfə də Vaşinqtonun qəzəbinə tuş gəlib. SİA xarici KİV-lərə istinadla xəbər verir ki, Ermənistanın Suriyaya həkim və sapyorlardan ibarət qrup göndərməsi ABŞ hakimiyyətinin sərt etirazına səbəb olub.

Birləşmiş Ştatlar Dövlət Departamentinin bununla bağlı yayılmış bəyanatında bildirilir ki, Yerevanın "Əsəd rejiminə" yardım missiyasında iştirakı qəbuledilməzdir. Vaşinqtonun rəsmi bəyanatında deyilir: "Dövlət Departamenti üçüncü dövlətlərin Suriyada yaranmış humanitar vəziyyətə həssaslığını anlayır. Lakin ABŞ bu məsələdə də Suriya Silahlı Qüvvələri ilə hər hansı əməkdaşlıq etmək istəmir. Biz, həmçinin Ermənistanın ... da bu missiyada iştirakını dəstəkləmirik".

# Yanvarda Antalyaya neçə azərbaycanlı turist gedib?



2019-cu ilin yanvarında Antalyaya 1000 azərbaycanlı turist səfər edib. Trend-in məlumatına görə, bu göstəricinin 2018-ci ilin yanvar ayı ilə müqayisədə 39 faiz çox olduğu bildirilir. Ümumilikdə, yanvar ayı ərzində Antalyaya 135 ölkədən 142,3 min turist səfər edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 53,8 faiz çoxdur. Azərbaycanlıların daha çox səfər etdikləri yerlər arasında Bodrum da ilk sıralardadır. Belə ki, 2018-ci ildə Türkiyənin Bodrum şəhərinə 14,1 min Azərbaycan turisti səfər edib. Ümumilikdə ötən il Bodruma 781 min xarici turist səfər edib ki, bu da 2017-ci illə müqayisədə 62 faiz çoxdur.

# Əli Kərimlinin “siyasi mühacir” biznesi və iyrəncliklər

***Əsasən, dağıdıcı müxalifətə, daha dəqiq desək, AXCP sədri Əli Kərimlinin rəhbərlik etdiyi “Yurd”un fəaliyyət sferasına daxil olan “siyasi mühacir” biznesinin qurbanları “yatıb, indi ayılıblar”. Buna görə də, qrant üstündə qırğına çıxan “siyasi mühacirlər” bir-birlərini ifşa etməsəydilər, bəlkə də hələ çox qış yuxusuna gedəcəkdilər. Avropada yaşayan və özlərini “siyasi mühacirlər” adlandıran Tural Sadıqlı ilə Məhəmməd Mirzəlinin pul davası bir çox düyünlərin açılmasına səbəb oldu.***

M.Mirzəlinin T.Sadıqlını qrantları təkbaşına mənimsəməkdə ittiham etməsinin ardından Tural da onu siyasi dəllallıqda ittiham etdi: “Məhəmməd satqın və ikiüzlü insandır və özünə saxta siyasi tarixçə formalaşadırıb. Məhəmməd siyasi sığınacaq almaq üçün dövlət əleyhinə çıxışlar edib, fəallıq göstərir. Bunların səbəbkarı AXCP sədri Əli Kərimlidir”.

Bu yerdə “xoruzun quyruğu görünür”. Artıq xaricdəki “söyüş qrupu” üzüdönüklük edərək, Ə.Kərimli haqqında ifşaedici faktlar açıqlamaqdan belə çəkinmirlər. Hazırda Hollandiyada yaşayan Fikrət Hüseynli bildirib ki, Ə.Kərimli və Cəmil Həsənlinin tapşırığına əsasən, xaricə “rahat həyat və yaşayış “ arxasınca getmək istəyənlərdən 2500-3000 AVRO alaraq, “Yurd” sədrinə göndərib. Eyni ilə AXCP-nin Nizami rayon təşkilatının üzvü Samir Piriyev də 15.000 AVRO ödəməklə, Ə.Kərimlidən saxta partiya vəsiqəsi aldığını söyləyib.



### Əli Kərimli xəyanətinin düyünü açılır...

Göründüyü kimi, Ə.Kərimlinin dələduz faktları acı bağırsaq kimi uzanır ki, uzanır... Elə Bakı Ağır Cinayətlər Məhkəməsində şahid qismində dindirilənlərin verdikləri ifadələr də bir daha AXCP sədri Ə.Kərimlinin xarici qüvvələrin göndərdiyi maliyyəni əldə etmək məqsədi ilə ölkədə təxribatlar törətmək istəyini sübuta yetirmək deyilmi? Məhkəmədə, o da təsdiqlənib ki, Rusiyada toplanılan vəsait Ə.Kərimliyə çatdırılıb. Həmçinin, məhkəmədə AXCP sədrinə istər Rusiyadan, istərsə də digər xarici dövlətlərdən toplanılan vəsaitlərin qanunsuz yollarla çatdırıldığı da üzə çıxıb.

Sözsüz ki, bu çirkin əməllərini həyata keçirmək üçün Ə.Kərimli əl atmadığı variant, üz tutmadığı yol qalmayıb. Bu səbəbdən də, AXCP-yə maliyyə gəliri qazandıran “sənaye müəssisəsi” kimi baxan Ə.Kərimli Razi Nurullayev demişkən, cəbhəçiləri portağal qabığı kimi soyur: “Əli Kərimli üçün “yaxşılar” və “pislər” var: güvəndikləri “yaxşılar”dır, qalanları isə “pislər”dir.

Ə.Kərimli minlərlə yalan vədlər verməklə, tələsinə düşənləri özünün maraqlarına xidmət etməyə məcbur edir. Eyni zamanda, bu, o iblis xisləti Ə.Kərimlidir ki, tək öz xalqına, vətəninə deyil, amalına, məsləkinə, dostluğuna və yoldaşlığına qarşı da xəyanət yolu tutub. Onun “siyasi karyerasında”, xüsusilə, ermənilərlə işbirliyini təsdiq edən amillər istənilən qədərdir və bu barədə onun əməllərinin sübuta ehtiyacı yoxdur.

### Aydın Mirzəzadə: “Bu, saxtakarlıqdır, Azərbaycana və azərbaycançılığa qarşı xəyanətdir”

Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadə qeyd edib ki, onlar, sadəcə olaraq, müəyyən qrup vətəndaşları xaricə göndərmək üçün firma rolunu oynayırlar: “Əvvəlcə vətəndaşlara üzvlük vəsiqəsi verir, sonra isə ildə bir neçə mitinq keçirir və həmin mitinqlərdə müəyyən olunmuş adamların guya polis tərəfindən tutulması, zorakılığa məruz qalması ilə bağlı fotosessiya nümayiş etdirir. Bununla da, həmin şəxslərin xaricə getmələrini təşkil edir. Azərbaycan cəmiyyətində tanınmayan və heç vaxt, heç bir siyasi prosesdə iştirak etməyən şəxs birdən-birə Avropaya köç edir. Hesab edirəm ki, bu, ilk növbədə, Azərbaycan siyasi müxalifətinin milli maraqlardan çoxdan uzaqlaşmasından xəbər verir”.

Bir sözlə görünən budur ki, bu gün baş verən belə hadisələrin hər birinin günahı “siyasi mühacir” adı ilə alver edən AXCP, Müsavat və s. siyasəti bazara çevirən partiya rəhbərlərindədir. Bir gün onlar da, baş verənlərə görə qanun qarşısında cavab verməli olacaqlar. Hətta Hamburq olayının üstü tam açıldıqdan sonra, bu, daha çox real görünməyə başlayacaq.

**Rəfiqə HÜSEYNOVA**

# Mirmahmud Mirəlioğlu: “AXCP tarixində Əli Kərimli qədər pozuculuq və xəyanət yolu tutan ikinci adam olmayıb”



***Bəlli olduğu kimi, KXCP daxilində vəziyyət, bir neçə müddətdir ki, kritik səviyyəyə çatıb. Baş verən qarşıdurmalar fonunda əsas tərəflər - sədr Mirmahmud Mirəlioğlu bildirib ki, bütün bu qarşıdurmaların, satqınçılığın və xəyanətkarlığın mərkəzində AXCP sədri Əli Kərimli dayanır: “Müxalifət düşərgəsində bir qolçomaqlıq prinsipi var və ona da başçılıq edən AXCP sədri Əli Kərimlidir. 25 il keçməsinə baxmayaraq, Ə.Kərimlinin təfəkküründə hələ də bir dəyişiklik olmayıb və olmayacaq da. Mafioz Ə.Kərimdi qolçomaq siyasəti apармaqla yanaşı, o, ancaq hakimiyyət arzusunu həyatı keçirmək məqsədi ilə dövlətə və milli maraqlara qarşı çirkin əməllərindən əl çəkmək istəmir. Bu istəkdə olanlar kimlərdir- satıb-satılan, mənəviyyatsız, siyasi təfəkkür problemi olan xəyanətkarlar - Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, C.Həsənli...”***

M.Mirəlioğlu bildirib ki, “eks-spiker Rəsul Quliyevin sözünə qüvvət, bu “badbaxtlar”ın hərəsi özünü “lider” elan edir. “O zaman soruşmaq istərdim “ay badbaxtlar”, necə “lider”siniz ki, sizi nə eşidən var, nə arxanızca gələn”.

### Əli Kərimli siyasətə siyasi əxlaqsızlıqla gəlib

M.Mirəlioğlu onu da bildirib ki, özündən böyüyə hörmətsizlik etməyi, ayaqaltı qazanlığı, iyrəncliyi, insanlar haqqında çirkin kampaniyalar aparıb ləkələmək kimi işlərin altına imza atan Ə.Kərimlinin bu gün siyasət aləmində qalmasının özü cinayətdir: “Ə.Kərimli kimi oyunbaz və əxlaqsız görməmişəm. Onun indiyə qədər “xəyanətkar” adlandırdığı şəxslər, əslində, kifayət qədər aydın fikirli insanlar olublar və xəyanətkarın ən yekəsi də özüdür. Ona görə ki, bu cəmiyyət tərbiyəsi şübhəli, əxlaqı ziddiyyətli olan birini nə qəbul edir, nə də bu cür xəyanətkarları bağışlamağı sevir”.

Bəli, Ə.Kərimli kimi iyrənc xislətliləri heç qəbir də düzəldə bilməz. Ancaq Ə.Kərimli bir məqamı unutmamalıdır ki, bu dünyada da, o dünyada da yeri olmayıb və olmayacaq da. Çünki milli xəyanətkarların yeri tarixin zibilliyidir və onlar sona qədər həmin zibillikdə qalacaqlar.

**R.HÜSEYNOVA**

# Qubada evdən pul oğurlayan şəxs saxlanılıb



Quba Rayon Polis Şöbəsinə Vəlvələ kəndindəki evlərin birindən 18 min manat və 790 min rublun (19 min 355 manat) oğurlanması barədə müraciət daxil olub. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən kənd sakini E.Əhmədəliyev polis əməkdaşları tərəfindən saxlanılıb. Məsələ ilə bağlı araşdırma aparılır.

# Yasamalda oğurluq edən şəxslər saxlanılıb

Yasamal Rayon Polis İdarəsinin 29-cu Polis Şöbəsinin əməkdaşları rayon ərazisində evlərdən oğurluq edən şəxsləri saxlayıblar.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxil olmuş müraciətlər əsasında keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində fevralın 10-da H.B.Zərdabi prospektindəki evlərin birindən 700 manat oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini Ş.Tağıyeva, fevralın 9-da isə 2-ci Alatava yaşayış sahəsindəki evlərin birindən 150 manat oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər oğurluq və narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş R.Adıgözəlov saxlanılıb. Hər iki faktla bağlı araşdırma aparılır.

# Külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb

Bakı Şəhər Baş Polis İdarəsi əməkdaşlarının keçirdikləri uğurlu əməliyyat tədbiri nəticəsində külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakı Şəhər Baş Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Hövsan qəsəbə sakini, əvvəllər oğurluq və narkotiklərlə əlaqəli cinayətə görə məhkum olunmuş S.Əmirov 5 qramdan artıq narkotik vasitə olan marixuananı satarkən cinayət başında yaxalanıb. Axtarış zamanı ondan əlavə 5,5 qram marixuana aşkar edilib. Davam etdirilən əməliyyat-axtarış tədbirləri ilə onun yaşadığı evdən əlavə olaraq çəkisi 28,4 kiloqram marixuana aşkarlanaraq götürülüb. Faktla bağlı cinayət işi başlanılıb.

*Heydər Əliyev Fondu yarandığı gündən bu vaxta qədər uşaqlara, yeniyetmələrə qayğını, onların parlaq gələcəyinin təminatını tarixi missiyaya çevirərək Azərbaycanda təhsilin inkişafına misilsiz töhfələr vermişdir. Azərbaycan cəmiyyətində hər kəs üçün bərabər təhsil imkanlarının yaradılmasını, gənc nəslin zəruri biliklərə yiyələnməsini, milli təhsilimizin beynəlxalq təhsil sisteminə inteqrasiyasını əsas fəaliyyət meyarlarından biri kimi müəyyənləşdirmiş Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva bu sahədə göstərdiyi nümunəvi fəaliyyəti ilə cəmiyyətimizdə yeni bir ənənənin əsasını qoymuşdur. Bu ənənə, ilk növbədə, Azərbaycanın sosial-iqtisadi yüksəlişinin ölkəmizin mədəni tərəqqisinə və ictimai şüur səviyyəsinin yüksəlişinə yönəlməsi zərurətindən çıxış edir.*

Samir Mustafayev yazır: "Ulu Öndərimizin adını daşıyan fondun prezidenti Mehriban xanım Əliyevanın bu gün milli təhsilimizin inkişafı istiqamətində həyata keçirdiyi ardıcıl fəaliyyəti bu ənənələri, illər sonra da, Azərbaycan dövlətinin yüksəlişini təmin edəcək əsas amil kimi qorunmasına, zamanın dəyişən tələblərinə uyğunlaşdırılması məqsədlərinə hesablanmışdır. Mehriban xanım Əliyevanın irəli sürdüyü, böyük uğurla həyata keçirilməkdə olan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının prioriteti də bundan ibarətdir. Bu proqram özündə təkcə respublikamızın ucqar əyalətlərində yeni məktəb binalarının tikilməsi, bu binaların ən müasir standartlara cavab verən maddi-texniki baza ilə təchiz edilməsi məzmununu ehtiva etmir. Həm də insanlara qayğı, uşaqlara, yeniyetmələrə və gənc nəslə diqqət timsalında, bütövlükdə, ölkəmizin parlaq gələcəyə aparılması strategiyasını ehtiva edir. Artıq minlərlə məktəbli hər il yeni dərs ilini beynəlxalq standartlara uyğun müasir təhsil ocaqlarında qarşılayır. Bütün bunlar sübuta yetirir ki, aydın məqsəd, xalqın rifahına söykənən amal, inam və iradə ilə birləşəndə, hər bir çətinlik bu qüdrətin qarşısında geri çəkilir. Təhsil sahəsində reallaşan "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi fondun həyata keçirdiyi ən böyük layihələrdəndir. Qısa həyatında önəmli bir amilə çevrilibdir və əminəm ki, fondu bundan sonrakı fəaliyyətində də ümumbəşəri prinsiplər irəliyə aparacaqdır. Heydər Əliyev Fondu milli fonddur. Fondun bütün təşəbbüsləri milli ruha əsaslanır. Eyni zamanda, Heydər Əliyev Fondu Azərbaycanı gələcəyə aparan gözəl bir vasitədir. Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, Azərbaycanın olduğu kimi dünyada təqdim edilməsi - bütün bu şərəfli funksiyalar bu fondun üzərinə düşübdür. Düşübdür deyəndə, fond və fondun rəhbərliyi bütün bu işləri öz təşəbbüsü ilə görür, - mən bunu da deməliyəm. Ona görə mən fondun fəaliyyətini çox təqdir edirəm, çox bəyənirəm və şübhə yoxdur ki, bundan sonra da Azərbaycanın gələcək inkişafında fondun rolu böyük olacaqdır".

Məlum olduğu kimi, təhsil elə bir ictimai hadisədir ki, cəmiyyətin keçəcəyi inkişaf yolu əksər hallarda bu sahəyə münasibətdən asılı olur. Təhsilin millətin, dövlətin və bir qədər də qlobal məcrada götürsək, ümumilikdə, bəşəriyyətin gələcəyi olduğunu söyləməklə, əslində, yeni bir nəzəriyyə kəşf etmirik. Son onilliklərdə millət və dövlət maraqları baxımından, müstəsna əhəmiyyətə malik bir sıra layihələri uğurla gerçəkləşdirərək cəmiyyətdə mərhəmət və xeyirxahlığın ali ünvanına

illər ərzində, Heydər Əliyev Fonduna müraciət etmiş on mindən çox vətəndaş müayinə və müalicə kursu keçmiş, min nəfərə yaxın xəstə respublikanın müxtəlif tibb müəssisələrində cərrahiyyə əməliyyatı olunmuş, çoxlu sayda xəstənin isə əməliyyat və müalicəsi xarici ölkələrdə aparılmışdır. İlk layihələrdən biri kimi bu gün də davam edən "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi 14 yaşına qədər qeydiyyatda olanların dərman preparatı ilə təmin olunmasına yönəlib.

Bu xeyirxah layihənin icrasına başlanılandan sonra ictimaiyyətin, müvafiq dövlət qurumlarının, milli və xarici şirkətlərin, Beynəlxalq Diabet Federasiyasının Azərbaycanın diabetli uşaqlarının problemlərinin həllinə diqqəti xeyli artmış, layihə cəmiyyətdə geniş əks-səda doğurmuşdur. Dünyada ən yüksək keyfiyyətli insulin istehsalçısı olan şirkətlərlə 2004-cü ildən başlanmış fəal tərəfdaşlıq fəaliyyəti Azərbaycanda qeydiyyatda olan uşaq və yeniyetmələrin insulin probleminin həllinə imkan verir. Diabetdən əziyyət çəkən uşaq və böyüklərin indi insulin, digər dərmanlar və qlükometr sarıdan hər hansı korluğu yoxdur. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Talassemiyasız həyat naminə" layihəsi də öz əhəmiyyətinə görə səhiyyə tariximizin ən önəmli hadisələrindən biridir. Mehriban Əliyevanın




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# HEYDƏR ƏLİYEV FONDUNUN ÇOXŞAXƏLİ FƏALİYYƏTİ

müddət ərzində, Azərbaycanın bütün regionlarında müasir tələblərə cavab verən məktəblərin inşası geniş vüsət almışdır. Layihə çərçivəsində respublikanın müxtəlif bölgələrində yüzlərlə yeni məktəb inşa edilmişdir. Bu, indiki şəraitdə müasir tələblər səviyyəsində təhsil almaq imkanı qazanan yüz mindən artıq şagirdin həyatında ciddi dəyişiklik və yenilik deməkdir. Əgər bu gün biz ucqar dağ kəndində yaşayan məktəblinin internet vasitəsilə Ümumrespublika Olimpiadasında iştirakının şahidi oluruqsa, bu, artıq görülən işin parlaq təzahürüdür."

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Fondun təşəbbüsü ilə başlanmış geniş məktəb tikintisi, - mən bunu bu gün açıq deməliyəm, - biz bu təşəbbüsü əsas götürüb, ölkəmizdə geniş miqyasda məktəb tikintisinə başlamışdıq. Amma ilk məktəblər, məhz fondun təşəbbüsü ilə və fond tərəfindən tikilmişdir. O məktəblərdə oxuyan, kompüterlə məşğul olan, yaxşı imkanlara malik olan uşaqlar gələcəyə nikbinliklə baxırlar. Onlar Azərbaycanın gələcəyidir. Mən, birmənalı şəkildə deyə bilərəm ki, Heydər Əliyev Fondu mədəniyyət sahəsində və digər sahələrdə, ölkə

çevrilmiş Heydər Əliyev Fondunun qarşıya qoyduğu hər bir xoş məram, ilk növbədə, Ümummilli Liderin ali ideallarını özündə ehtiva edir.

Fondun reallaşdırdığı layihələr Mehriban xanımın yüksək təşkilatçılığı sayəsində bənzərsizliyi ilə diqqəti cəlb edir. Heydər Əliyev Fondunun layihələri qlobal xarakteri və keyfiyyətinə görə, hətta beynəlxalq layihələri üstələyir. Bu, qürur doğuran reallıqdır. BMT, İslam Əməkdaşlıq Təşkilatı, UNESCO, ISESCO və onlarca mötəbər qurumun dünyanın dörd bir tərəfində çalışan, peşəkarcasına müqayisə aparmaq imkanına malik yüksək vəzifəli şəxslərinin Heydər Əliyev Fondunun layihələrindən təsirlənərək, gördüklərini sözə çevirməkdə aciz qaldıqlarının dəfələrlə şahidi olmuşuq. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə səhiyyə sisteminin müasirləşdirilməsi sahəsində də mühüm işlər həyata keçirilir, tibb ocaqlarında ən müasir avadanlıqlar quraşdırılır, əhaliyə göstərilən xidmətin səviyyəsi getdikcə yüksəlir. Uşaq Müalicə-Profilaktika müəssisələrinin yenidən qurulmasında, xarici ölkələrdən mütəxəssislərin yerli klinikalara dəvət olunmasında, treninqlərin keçirilməsində və həkimlərin mübadiləsində fondun köməyi xüsusi qeyd olunmalıdır. Ötən

səsləndirdiyi aşağıdakı fikirlər, hələ illər öncə, talassemiya adlı ümumi bəlanın həlli üçün imkanların birləşdirilməsindən ötrü cəmiyyətə ünvanlanmış bir çağırış idi: "Xəstəlik böyük-kiçik tanımasa da, uşaqların əzabı daha ağrıdıcıdır. Amma dünyada bu xəstəlikdən tamamilə sağalan insanlar var. Ona görə çox böyük işlər görmək lazımdır və bunun öhdəsindən yalnız birlikdə gəlmək olar".

Heydər Əliyev Fondu talassemiya xəstəliyinə qarşı mübarizə sahəsində xüsusi proqram hazırlamış, ictimaiyyətin, xarici ölkələrin və Beynəlxalq Talassemiya Federasiyasının diqqəti bu problemin həlli yollarının araşdırılmasına cəlb edilmişdir. Azərbaycanda talassemiya xəstəliyinin müalicəsi və diaqnostikası məqsədilə Heydər Əliyev Fondu tərəfindən ixtisaslaşdırılmış mərkəz tikilərək, 2009-cu ildə istifadəyə verilmişdir. Bakının mərkəzində ucalan Talassemiya Mərkəzi yüzlərlə Azərbaycan körpəsini həyata qaytaran şəfqət məkanına çevrilmişdir. Talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təminatı üçün ölkəmizdə könüllü donor xidmətinin inkişaf etdirilməsi də Heydər Əliyev Fondunun bu sahədə apardığı işlərin, cəmiyyətə ünvanlanmış çağırışın müsbət nəticəsidir. Azərbaycandakı bir sıra dövlət və özəl qurumlarda "Donor Günü"nün müəyyənləşməsi, həmin təşkilatlarda çalışan şəxslərdən bir qrupunun talassemiyalı uşaqların yaşaması naminə könüllü qanvermə aksiyasında iştirakı son illərdə rəğbət doğuran ənənəyə çevrilmişdir. Bütün bunlar Heydər Əliyev Fondu tərəfindən irəli sürülmüş təşəbbüslərin cəmiyyətdə getdikcə daha böyük dəstək almasının, ayrı-ayrı sosial qrupların bu təşəbbüslərin icrası prosesinin, sadəcə, müşahidəçiləri deyil, həm də fəal iştirakçıları olmağa can atmasının göstəricisidir.

Uşaqlarla bağlı humanitar layihələrdə fəal iştirakına görə, ABŞ-ın "Uşaqların Xərçəng və Qan Fondu"nun "Key to Life" - "Həyata Açar" yüksək mükafatına layiq görülən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (International Dialogue for Environmental Action) - Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq təşəbbüsünün təsisçisi Leyla Əliyeva mükafatın 2011-ci ilin noyabrında Nyu-York şəhərində keçirilən təqdimat mərasimində Heydər Əliyev Fondunun bu sahədə gördüyü işləri belə əsaslandırmışdır: "Mənim təmsil etdiyim təşkilat - Heydər Əliyev Fondu təkcə Azərbaycanda deyil, bütün dünyada bu xəstəliklərin qarşısının alınması üçün çalışır. Biz "Talassemiyasız həyat naminə" səhiyyə təşəbbüsümüzlə 2009-cu ildə bölgənin ən iri talassemiya mərkəzini açmışıq. Ən son texnologiyalarla təchiz olunan bu mərkəzdə xəstələr pulsuz müalicə alırlar. Mərkəz, həmçinin, mütəmadi olaraq, qan köçürmələri və ölkənin müxtəlif bölgələrində qanvermə kampaniyaları həyata keçirir, diabet xəstəliyindən əziyyət çəkən 14 yaşından az olan uşaqları pulsuz insulinlə və iynələrlə təchiz edir. Siz həyatı sapdan asılı olan uşağı görəndə həyatda nəyin vacib olduğunu anlayırsınız. Biz bu həyatları xilas edə biliriksə, bundan vacib nə ola bilər?"

Hər hansı bədbəxt hadisə nəticəsində ziyan çəkmiş insanların müalicəsinə kömək göstərilməsi də Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən biridir. 2004-cü ildə Bakı metropoliteninin "Bakı Soveti" (indi "İçərişəhər") stansiyasında baş vermiş qəzada xəsarət alan insanların müalicəsi ilə bağlı bütün xərcləri Heydər Əliyev Fondu öz üzərinə götürmüş, fondun prezidenti Mehriban xanım Əliyeva yaralılara şəxsən baş çəkərək, onların tibbi reabilitasiyasına kömək göstərmişdir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

# səs

Son səhifə 14 fevral


## İldə 420 min insan qida mənşəli xəstəliklərdən ölür



Milyonlarla insan qida zəhərlənmələri nəticəsində xəstələnir və həyatdan köçürlər. Əddis-Əbəbədə (Efiopiya) açılan Qida Məhsullarının Təhlükəsizliyi məsələlərinə dair Birinci Beynəlxalq Konfransın iştirakçıları bu tendensiyanın qarşısını almaq məqsədilə müzakirələr aparırlar. AZƏRTAC bu barədə Birləşmiş Millətlər Təşkilatının (BMT) saytına istinadla xəbər verir. Konfrans BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Dünya Səhiyyə Təşkilatının (DST) himayəsi ilə keçirilir.

Hər il 600 milyon insan tərkibində bakteriya, virus, parazit, toksin və kimyəvi preparatlar olan qida məhsullarının qəbul edilməsi nəticəsində xəstələnir. İldə 420 min insan qida zəhərlənməsi nəticəsində ölür. Keyfiyyətsiz yeməklər təxminən yüzlərlə yoluxucu və hətta qeyri-yoluxucu xəstəliklərin, o cümlədən xərçəng xəstəliklərinin səbəbi ola bilər. "Qida məhsulları xəstəliyin və ölümün səbəbi deyil, doyma və həzzin mənbəyi olmalıdır. Keyfiyyətsiz yemək ildə yüz minlərlə ölümə səbəb olsa da, indiyədək bu problemə lazımi diqqət yetirilmir", - deyə DST-nin baş direktoru Tedros Adhanom Qebreyesus konfransın açılışındakı çıxışında bildirib.

## "Ağıllı" stetoskop hazırlanıb



Hər il dünyada milyonlarla insan pnevmoniya xəstəliyindən dünyasını dəyişir. Statistikaya görə, 5 yaşınadək uşaqlar arasında ölüm hallarının təxminən 16 faizi pnevmoniya ilə bağlıdır. Bu göstərici sözügedən xəstəliyə diaqnoz qoymağa imkan verən yüksəkixtisaslı mütəxəssis və rentgen aparatlarının çatışmazlığı müşahidə olunan ölkələrdə xüsusilə yüksəkdir. hightech.fm saytının məlumatına görə, Con Hopkins Universitetinin alimləri bu problemi aradan qaldırmağa cəhd göstəriblər. Alimlər tərəfindən yaradılmış "ağıllı" stetoskop yalnız həkimlərin işini asanlaşdırmayacaq, həm də həkim olmadığı şəraitdə müstəqil şəkildə xəstəliyi aşkar etməyə imkan verəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutu adı çəkilən sayta istinadla məlumat verib.

Qeyd olunub ki, innovativ qurğu ənənəvi analoqlardan iki funksiya ilə fərqlənir. Birinci funksiya səsin azaldılmasıdır. Yeni stetoskopa inteqrasiya edilmiş alqoritmlər ürək döyüntüsü və kənar səsləri aşkar edərək, onların səsini azaldır ki, həkim pasiyentin nəfəsini daha yaxşı eşidə bilsin. İkinci funksiya həkim olmadığı şəraitdə qurğu tərəfindən diaqnozun qoyulmasıdır. Cihaz ağciyərdəki səsləri müstəqil təhlil edərək pnevmoniya xəstəliyinin mövcudluğunu 87 faiz dəqiqliklə müəyyənləşdirmək qabiliyyətinə malikdir.

## ABŞ-ın dövlət borcu 22 trilyon dolları keçib



ABŞ Maliyyə Nazirliyinin 2019-cu ilin fevralınadək olan məlumatına görə, Birləşmiş Ştatların dövlət borcu 22 milyard dolları keçib. AZƏRTAC "USA Today" nəşrinə istinadla xəbər verir ki, fevral ayının ilk on günündə dövlət borcu 90 milyard artaraq 22,012 trilyon dolara çatıb. Son on bir ay ərzində isə bu rəqəm 1 trilyon dolladək artıb. Nəşrin yazdığına görə, Prezident Donald Trampın dövründə ötən il keçirilən və ABŞ dövlət büdcəsinə 1,5 trilyon dollara başa gələn vergi islahatları, həmçinin müdafiə xərclərinin artması nəticəsində dövlət borcu görünməmiş sürətlə artır.

## Taekvondoçularımız "Prezident kuboku" yarışında 4 medal qazanıblar



Azərbaycanın böyüklərdən ibarət taekvondo üzrə milli komandasının dörd idmançısı Türkiyədə təşkil edilən "Prezident kuboku" yarışında medal qazanıb. SİA-nın məlumatına görə, milli komandamızın üzvləri fevralın 11-də Antalyada start götürən Dünya Taekvondo Federasiyasının G2 kateqoriyalı yarışında mübarizə aparıblar. Avropa qitəsində sayca 4-cü dəfə keçirilən turnirin sonuncu günündə 4 kişi taekvondoçumuz mükafatçılar sırasında yer alıb.

Belə ki, dayanq üzərinə çıxan Milad Beigi Hərçəqani (80 kq) yalnız həlledici görüşdə məğlub olaraq yarışı gümüş medalla başa vurub. Təmsilçilərimizdən Qaşım Maqomedov (58 kq), Ramin Əzizov (87 kq) və Radik İsayev (87 kq-dan yuxarı) yarımfinalda uduzaraq turnirdə bürünc medalla kifayətləniblər. Bu, böyüklərdən ibarət taekvondo üzrə yığmamızın üzvlərinin 2019-cu ildə iştirak etdikləri ilk beynəlxalq yarış olub. Komandamızın üzvləri fevralın 15-16-da keçiriləcək "Turkish open" beynəlxalq turnirində də qüvvələrini sınayacaqlar.

## "Mançester Yunayted" PSJ-yə uduzub



Futbol üzrə UEFA Çempionlar Liqasının səkkizdəbir final mərhələsinə iki oyunla start verilib. Günün mərkəzi qarşılaşması İngiltərədə "Mançester Yunayted"lə Fransanın PSJ klubu arasında keçirilib. Matç qonaqların 2:0 hesablı qələbəsi ilə başa çatıb. Fransa klubunun heyətində Kimpembe və Mbappe fərqləniblər.

Günün digər matçı isə Romada oynanılıb. "Roma" doğma "Olimpiko" stadionunda "Portu"dan üstün olub - 2:1. Meydan sahiblərinin heyətində Zaniolo dubl edib, qonaqlardan isə Adrian adını tabloya yazdırıb. Bu komandalar arasında cavab qarşılaşmaları martın 6-da keçiriləcək.

## "Fənərbağça" öz meydanında "Zenit"i məğlub edib



Fevralın 12-də UEFA Avropa Liqasının onaltıdabir final mərhələsinin ilk görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, İstanbulun "Şükrü Saracoğlu" stadionunda keçirilən görüşdə "Fənərbağça" Rusiyanın "Zenit" klubunu qəbul edib. Görüş İstanbul təmsilçisinin minimal hesablı qələbəsi ilə başa çatıb -1:0. Matçın yeganə qoluna 21-ci dəqiqədə İslam Slimani imza atıb. Oyunun 44-cü dəqiqəsində Peterburq təmsilçisinin heyətində Mak penaltidən yararlana bilməyib. Bu komandalar arasında cavab qarşılaşması fevralın 21-də keçiriləcək.

## Azərbaycan batutçusu: "Qarşıma finala çıxmaq məqsədi qoymuşam"



"Bakıda keçiriləcək batut gimnastikası və tamblinq üzrə dünya kuboku yarışlarına ən güclü gimnastlar gələcək". SİA Azərbaycan Gimnastika Federasiyasına istinadla xəbər verir ki, bu sözləri Azərbaycan batutçusu İlya Qrişunin deyib. O bildirib ki, aldığı zədədən sonra məşqlər çətin keçir: "Vaxt azdır, öz təcrübəmə ümid edirəm. Bu turnir 2020-ci il Olimpiya Oyunlarına lisenziya xarakteri daşıdığı üçün Bakıya ən güclü gimnastlar gələcəklər".

Final mərhələsinə çıxmaq şanslarından danışan gimnast bildirib ki, proqramı stabil icra etmək lazımdır: "Bu idman növündə hər şey mümkündür, ona görə də hazırladığım proqramı stabil yerinə yetirməliyəm. Fikrimcə, şans olacaq. Psixoloji olaraq qarşıma finala çıxmaq məqsədi qoymuşam, orada isə ilk üçlük uğrunda mübarizə aparacağam". Qeyd edək ki, batut gimnastikası və tamblinq üzrə ilin ilk dünya kuboku Bakıda fevralın 16-17-də keçiriləcək. Turnirdə 31 ölkədən 200-dən artıq gimnastın mübarizə aparacağı gözlənilir.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500